www.achiq.info

# M.C.Pişəvəri (Cavadzadei Xalxali)



# Neçə Yazi ”Ajir”dən

# Qaynaqlar:

**M.C.Pişəvəri. Seçilmiş əsərləri**. Azərbaycan ruznaməsinin nəşriyyəsi. 1344 (1965) toplayan, tərtib, tərcümə və redaktə eden heyət: Əhməd Əminzadə, Təqi Musəvi, Husen Ciddi

**M.C.Pişəvəri. Seçilmiş əsərləri.** Toplayanla tərtib, tərcümə edən: Əhməd Əminzadə, Təqi Musəvi, Husen Ciddi. Redaktor Əmirəli Lahrudiş 1984. Bakı

**Səhiyfə** **Dizin**


2 NƏDƏN YAZACAYIQ?

5 BİZ NƏ DEYİRİK, MİLLƏT NƏ İSTƏYİR?

7 TƏBPİZ SƏFƏRİNİN YOL QEYDLƏRİNDƏN

11 BİZ VƏ KEÇMİŞ ŞAH

13 HANSI FİRQƏ DOÖRU VƏ DÜZGÜN FİRQƏDİR?

15 Nə Üçün Bir Cəmiyətdə Firqə Ya Firqələr Meydana Gəlir?

17 Nə Üçün Bir Cəmiyətdə Firqə Meydana gəlir?

21 Kimlər Rəhbər Ola Bilərlər

24 Firqə Kadrlarının Əhəmmiyyəti

www.achiq.info

# NƏDƏN YAZACAYIQ?

Diktatorluğun başlanğıcı dövründə də, ölkədəkm .ictimai quruluşun əsası çürümüş və bərbad halda idi. O kündə də İran xalqının əksəriyyəti öz ictimai vəziyyətnin islah etmək naminə nə kimi vasitə və kimin əlilə olursa-olsun dövlət işlərini əsas etibarı ilə zadəgan və nüfuzlu təbəqəyə mənsub olan başçıların titrək əllərindən çıxarıb öz əlinə almağa səy edirdi. Xalq istəyirdi ki, dövlət məmurlarının və imtiyazlı siniflrin qədim iş qaydası sayılan zorakılıq, zülm və istibdad tədbirlərinə son qoyaraq özünə aid bütün işlərdə yaxından iştirak etsin. Lakin bədbəxtlikdən bügünkü mövzudan xaric olan bir çoxlu səbəb və təsadüflər üzündən iyirmi illik diktatorluq dövrü başlandı. O, ağızları qıfıllamaq, qələmləri sındırmaq, fikir və düşüncələri zəhərləmak və xeyirxah şəxslərin əzm və iradəsini tapdalamaq yolu ilə işə başlayıb çürümüş və qələt hökumət quruluşuna bəzək-düzək verdi. İş başına gəlmiş diktator çürümüş üsuli-idarənin şikəst payələri üzərində zahirən xoşagəlim lakin batində tam mənası ilə quru bürokratik və ioliscəsinə düzəldilmiş aristokratik sarayı bərpa etdi. O, zahirdə Avropa mədəniyyətindon təqlid edərək verknləri artırmağa, dəbdəbəli idarələr yaratmağa, saysız-hesabsız yüksək rütbəli məmurlar düzəltməyə başladı. Ölkə büdcəsinin istər gəlir və istərsə məxaric hissələrini qarətgərlik və soyğunçuluq əsasında quraraq onun miqdarını ıldırım sürətilə artırdı. Heç bir ictimai məqsəd və əsas hədəf olmadan, heç bir rəhm və mürüvvətə yol vermədən kənd və şəhər zəhmətkeşlərini soyub talamağa başladı. Bunun nətiçəsində keçmişdəki çürük, sust və dərdə dəyməz aristokratlar təbəqəsinin yernidə, iki yeni təzə nəfəs və ciddi təbəqə meydana gəldi.

Bu təbəqələr bütün diktatorluq dövründə əl-ələ verərək ölkənin bütün mənəviyyatı üzərində hökmranlıq etdilər. Onlar öz maddi və mənəvi nüfuz dairələrini gündən-günə genişləndirdilər. Bu iki təbəqədən birn-si yüksək rütbəli dövlət qulluqçularından və hökumət idarələrində işləyən nüfuzlu rəhbərlərdən ibarət idi. Onlar öz məqsədlərinin icrası üçün çıxardıqları qanun-qaydalarla və verdikləri göstərişlərlə hamının əl-ayağını bağlayır, öz istədiklərini edirdilər. Bu başçılar öz zahiri hüquq və qanuni mövqelərini qotiyyoi nozorə a.tmayaraq, müxtəlif vasitələrlə xal-qı soyurdular. Onlar rüşvətxorluq və dövlət əmlakını mənimsəməkdən əlavə ticarətxanalarda, səhmdar çəmiyyətlərdə və maliyyə təsisatlarında, bir sözlə, hər yerdə kök salaraq, zorakılıq, özbaşınalıq metodları ilə ciblərini doldururdular. Onlar heç kəsdən, hətta öz dediklərinə görə, bir işarə ilə yüzlərlə yüksək rütbəli adamı məhv etməyə qadir olan şəxsdən də çəkinmirdilər.

İkinçi təbəqə onlardan daha təhlükəli idi. Bu təbəqə ən gobud, cahil və fürsət tələb sələmçilərin, eləcə də küçələrdəki alçaq fırıldaqçı lotuların və bazarlardakı hoqqabaz dəllaların içərisindən törənmişdi. Bunlar puldan başqa heç bir şeyi başa düşmürdülər. Birinci təbəqənin yardımı sayəsində isə onlar son dərəcə varlanmışdılar. Bu iki təbəqə əl-ələ verərək İran xalqının qanını sorur və əhalinin əksəriyyətini fəlakətə uğradaraq gündəlik çörəyə möhtac bir vəziyyətə salmışdılar.

Dövlət və ictimai işlərin idarə olunması məfhumu tamamilə aradan getmişdi. Dövlət təşkilatının ölkə işlərini idarə etməyə vəzifədar olduğunu təsəvvür etmək belə mümkün deyildir. Sanki ölkə və onun əhalisi yalnız dövlət idarələrində işləyən xəyanətkar məmurların yenicə ortalığa çıxmış sələmçi və sərmayədarların tamahı və hərisliyini təmin etmək üçün lazım imiş.

Nəhayət, belə bir şəraitdə şəhrivər[1] hadisəsi baş verdi. Bu hadnsənin şiddətli zərbəsi ictimaiyyətin bütün siniflərinə təkan verdi. Pərdələr qəflətən cırılaraq Rza xan diktatorluğunun zəif və solğun siması zahirə çıxdı. Zalım və məzlum siniflər hər ikisi diksinərək özünə gəldi. Lakin məzlum kütlə fəlakətli, yazıq və əl-qolu bağlanmış əsarət vəzində idi. İyirmi il ərzində onu tapdalayıb taqətdən salmışdılar. Onun danışmağa, öz varlığını göstərməyə belə qüdrəti yox idi. Buna görə də diktatorluq üzərindən pərdə götürüldükdə o, nə edəcəyini, haradan işə başlayacağını, öz

qanuni hüquqlarından hansını daha tez tələb edəcəyini bilmirdi. O, neçə illik intiqamını çəkməsi üçün nə kimi vasitələrə malik olduğunu bilmirdi. Məzlum, əzilmiş, vergilər toplanması yolu ilə soyulmuş zəhmətkeş sinif heyrət və böhtə dalmışdı. Buna görə də şəhrivər hadisəsində o dərhal təsirli bir iş görə bilmədi. Lakin zalım siniflər öz dərslərini yaxşı bilirdilər. Onlar öz danışıqlarının tonunu dərhal dəyişərək, demokratlaşır, alzdlıq və millətpərvərlik daşını döşlərinə döyür, necə deyərlər çörəyi günün məzənnəsi ilə yeməyə başlayırlar. Bundan əlavə onlar həmişəki kimi yenə də yuksək dövləti vəzifələri öz əllərində saxlayıb silahlarla təchiz olunurdular: Onlar danışmaq, nitq söyləmək, qəzetlər nəşr etmək, parlament kürsülərindən istifadə etmək imkanlarına malik idilər. Teleqraf, telefon, radio, sinema (kino) gözəl binalar, avtomobillər, bir sözlə, yığıncaqlar təşkil etmək və sürətlə işləmək üçün lazım olan bütün vasitələr onların sərəncamında idi. Həmin ağalar bu vasitələrdən son dərəcə istifadə etməkdən əlavə, bəzən özlərini məzlum və işgəncələr çəkmiş azadixahlar kimi qələmə verirdilər.

Şübhəsiz, bu işin başlanğıcı idi. İndi demək olar ki, vəziyyət yenicə dəyişmişdir. Şəhrivərdən sonra «demokrat» olmuş ağaların indi daha qeyd olunan maskalara ehtiyacı yoxdur. Hal-hazırda onlar, diktatorluq dövrünün aldadıcı sözləri ilə açıq surətdə fəaliyyət göstərə bilirlər. Onlar ictimaiyyəti tam mənasında öz hökmranlığı altına almış, qıtlıqdan, aclıqdan, hay-küy qoiarmaqdan, bir sözlə, bütun vasitə-lərdən və hər hansı təsadüfi bir hadisədən istifadə edə bilirlər. Onlar batində faşist olub eyni zamanda Berlin, Roma, Tokio adlanan oxuntərəfdarı olduqları halda, zahirdə özlərini müttəfiqlərin və demokratiyanın dostu kimi göstərirlər. Onlar xalqa yalan sataraq pul, sərvət, hökmranlıq və ağalıqdan başqa heç bir məqsəd güdmürlər. Biz söhbətimizi həmin təbəqələrin işlərini izah və təhlil etməklə başlayaraq nəhayət, bu təhlükəli təbəqələrə qarşı mübarizə aparmaq yolunu zəhmətkeş siniflərə və təmiz adamlara öyrədəcəyik.

Biz hələ qeyd olunan təbəqələrin bügünkü işlərindən danışmamışıq. Şübhəsiz gündəlik işlər və qarşıya çıxan ictimai hadisələrlə əlaqədar olaraq həmin məsələni bir-birinin ardınca şərh edib, zəhmətkeş kütləni, əməli surətdə yol üstündə qurulmuş tələdən xəbərdar edəcəyik.

Bəziləri hazırkı bədbəxtlik və fəlakətləri bilavasitə müharibənin və son illərdəki gözlənilməyən hadisələrin nəticəsi kimi hesab edirlər. Bu heç də duzgün deyil. Bu fəlakətlərin kökünü illər boyu davam etmiş diktatorluq dövrunün qələt və təhlükəli siyasətində axtarmaq lazımdır. Bu siyasət isə yuxarıda qeyd olunan təbəqələrin əlilə həyata keçirilir. Dünən qəzstlərdən biri üstüörtülü halda göstərmək istəmişdi ki, keçmiş hökumətin guya müəyyən məqsədi olmuşdur. O, ölkəni kənd təsərrüfatı halından çıxararaq sənayeləşdirmək istəyirmiş. Bundan daha gülünc iddia ola bilməz. İstər keçmiş, istərsə də indiki hökumətlərin başı gündəlik məsələlərlə o qədər qarışmışdı ki, onlar nəinki əsas məqsəd haqqında, bəlkə gündəlik məqsəd haqqında da fikirləşməyə vaxt tapmırlar. Bu sözlər çoxdan eşitdiyimiz bayatılardır. Ağalar tutuquşu kimi onları əzbərləyərək xalqa aşılamaq istəyirlər. Keçmiş hökumətin siyasəti əməldə çox sadəlövh və səthi olmuşdur. O, hər hansı ünvan və vasitə ilə olursa-olsun çoxlu pul əldə etmək və həmin vəsaiti yalnız mərkəz və bir neçə şəhərdəki küçələri bəzəmək üçün xərcləmək istəmişdir. Dövləti vəzifələri işğal etmiş ağalar isə mümkün qədər mülk və kənd alır. Xırda malik və əkinçiləri taqətdən salaraq, onları dəstə-dəstə dilənçi halında şəhərlərə göndərirlər. Heç bir ölkə əkinçilərin vəziyyətini islah etmədən, onların alıcılıq qüdrətini artırmadan, məhsul üçün bazar yaratmadan özünü sənayeləşdirə bilməz. Beləliklə, aydın olur ki, keçmiş hökumətin məqsədi heç də ölkəni sənayeləşdirmək olmamışdı. Bu fikri yalnız dəllallar və öz köhnə maşınlarını satmaq istəyən alman və sair ölkələrin kapitalistləri, habelə böyük maaşlarla zavodlarda mühəndis və mütəxəssis adı ilə fəaliyyət edən xarici casuslar təbliğ edərək, bu yol ilə ölkəni öz ölkələri üçün sağmal inəyə çevirmişdilər. Biz bu məqalədə onların siyasi nöqteyi-nəzərləri və sair fırıldaqları haqqında danışmaq istəmirik. Bir sözlə demək olar ki, son

www.achiq.info
iyirmi il ərzində ölkə iqtisadiyyatının bazası sayılan kəndlərin abadlaşması və islahı haqqında kiçik addım belə atılmamış, digər istehsalçı təbəqələrin mənafelərini qorumaq barədə sadə danışıq belə olmamışdır. Bəziləri misal olaraq «sənaye ölkəsinin» zavodlarında istehsal olunmuş malların satılmasını dəlil göstərir. Bu mallar kimə satılmalı idi? İranın əsas kütləsi gündəlik çörəyə möhtac idi. Xarici qonşularımız da hər biri özünə görə sənayeləşdirilmiş və öz ehtiyacını özü ödəyə bilirdi. Bundan başqa bizim məmləkətin cüzi və zəif sənayesi başqalarının heyrətəngiz və əzəmətli sənayesi qarşısında necə rəqabət edə bilərdi? Kazruni fabriklərində toxunan təlisləri, Londonun yun parçalarından belə baha qiymətə, zorla xaricilərə satmaq olmazdı. Eləcə də biz dövlət və ictimai müəssisələrn, yaxud xarici ticarət təşkilatlarını Behşəhr və Şahi şəhərlərində toxunan çit və kətan parçaları daxildə satılan qiymətə almağa məcbur edə bilməzdik. Bu göstərişlərdən məqsəd nə imiş? Düzgün məqsəd qarşıya qoyulsaydı, iş bu yerə gəlib çatmazdı. Dünyanın başqa ölkələrində belə bir hadisə baş verməmişdirmi? Silah ələ gətirərək neçə il ərzində öz ölkəsini müdafiə edən qonşularımızda aclar və yoxsulların səsi bizim ölkədə olduğu kimi qulaqları kar etməmişdi. Bunun səbəbi çox aydındır. Çünkü onların məqsədləri vardır. Bu ölkələrin başçıları ölkəni idarə və kütlələrin həyatını təmin etmək üçün müəyyən plan və proqramma hazırlamışlar. Onların hökumətləri öz sədaqəti və səmimiyyətləri ilə xalqın bütün təbəqələrinin etimadını qazana bilmişdirlər. Onların başçıları heç də torpaq almaq, şəxsi qazanc əldə etmək, zulm,, təcavüzkarlıq və lovğalıq etmək fikrində deyillər. Şübhəsiz ki, həmin idari anarxiya və qarmaqarışığın nəticəsi hazırkı siyasi və iqtisadi anarxiya və qarma-qarışıqlıqdan başqa heç bir şey ola bilməz.

**«Ajir» qəzeti no. 1-2, 22-23 may 1944-cü il (1-2 xordad 1323)**

[1] İkinçi dünya müharibəsi dövründə 1320-ci h. ş. ilin şəhrivər ayının 3-də (1941-ci ilin avqust ayında) müttəfiq qoşunların İrana daxil olması nəzərdə tutulur.

# BİZ NƏ DEYİRİK, MİLLƏT NƏ İSTƏYİR?

Altı aylıq seçki mübarizəsi istər-istəməz məni cəmiyyətin daxilinə sövq etdi. Hər yerə getdim, ərbabların təmtəraqlı evləri, kəndlilərin daxmaları, fəhlələrin mənzilləri, bir sözlə, Təbriz əhalisinin bütün təbəqələri ilə tanış oldum. Bu işdə mənə hərəkətverən qüvvə heç də ehsasatım olmamışdır. Ona görə ki, siyasi bir şəxsin həvəs və şöhrət naminə özünü suya və oda vurduğu dövrləri mən keçirmişdim. Mən istəyirdim eşidim, görüm, anlayım və əlac yolu tapım. Mənim məqsədim dəlil, sənəd və illət axtarmaq idi. Həmişə öz papağımı qarşıya qoyub fikirləşir və öz vicdanımla gördüyüm işlər haqqında düşünürdüm.

Həqiqətlər acı və xoşagəlməz idi. Lakin mən onları görməkdən, tanımaqdan və başa düşməkdən qorxmurdum, çalışırdım ki, boş fikir, xəyal və təsəvvürləri bir kənara qoyub özümu olduğum kimi tanıyam. Öz yolumu təşxis vərəm. Nəticə mənim üçün əsəfləndirici və xoşagəlməz idi.

Mən istər-istəməz etiraf etməliyəm ki, çəmiyyətə yol göstərmək və rəhbərlik etmək iddiasında olan bizlər onu yaxşı tanımamış, onun ehtiyaclarına, istək və arzularına yaxşı bələd olmamışıq. Dövlət və məclis kimi mətbuatın da qətiyyən millətlə düzgün rabitəsi yoxdur.

Bəli, Tehrandan, xarici vəziyyətdən xəbəriniz yoxdur. Tehrandan xaricdə yaşayanlar da bizi tanıya bilmirlər. Sanki biz xüsusi bir kürədə, İranın əsas kütləsi də ayrı bir kürədə yaşayırlar. Nə

www.achiq.info
onların ürəyindən qopan nalələrin səsi bizə çatır, nə də biz öz sözlərimizi onların qulağına çatdıra bilirik. Tehrandakı qrupların cürbəcur oyunları, Tehrandakı qulağı kar edən hayküy yalnız Tehranın öz mühitində xəfələnib aradan gedir. Vilayətlərdə yaşayanlar mərkəzdə baş verən siyasi çəkişmələrin həqiqətini başa düşə bilmirlər. İranın əsas kütləsi ölkənin ümumi siyasətini təşxis verməyi hələ bir yana qalsın, hətta qəzet belə oxuya bilmir.

Deyirlər, ziyalı əqəliyyət millətə rəhbərlik etməlidir. Bu qələt və zərərli bir fikirdir. Həqiqi kütlə ilə rabitədə olmayan ziyalı əqəliyyətin əlindən heç bir iş gəlməz. Bu məsxərə və zəhərləyici fikir təhsil almış ziyalı gənclərin bir çoxunu yoldan caydırır. Yox, təkcə ziyalı əqəliyyət ölkəni idarə etməməlidir! Ölkənin hakimi və həqiqi idarəedicisi millətdən ibarətdir. Müsəlman şərqindəki bəzi ziyalılar ona görə şöhrət qazanırlar ki, onlar cəmiyyət daxilindən, kütlələr içərisindən çıxırlar. Cəmiyyətin ehtiyacları onları irəli çəkir. Səthi müşahidələr üzündən, bəd-bəxtlikdən biz bu xətərli yola duşüb, istəyirik ki, kifayət qədər siyasi yetkinliyi olmayan ziyalılar ölkənin işlərini öz əllərinə alsınlar, başçı və rəhbər olsunlar.

Millətin siyasi tərbiyəsinə qayğı göstərməmək bəd-bəxtlik və fəlakətdir. Ziyalılarımız istəyirlər ki, zəhmət və səy göstərmədən millətin qabağına düşüb, başçılıq və rəhbərlik məqamını işğal etsinlər.

İran xalqı bu sözlərə qulaq asmır. O, nə müxtəlif məramnamələri oxuyur, nə də müxtəlif qrupların uzun-uzadı proqramlarından baş çıxarır. O, öz gündəlik ehtiyacları və yaşayışı daxilində itib batmışdır. O, ziyalı təbəqədən təzyiq, zülm, çal-çap və qarətçilikdən başqa ayrı şey görməmişdir. Qanunlar hələ də kəndlərdə özünə ümumi hal almamışdır. Hamının müqəddəratı jandarmaların, bəxşdarların, hampaların və kəndxudaların əlindədir. Şəhər kütlələri də qanun himayəsindən istifadə edə bilmirlər. Hələ də alçaq və kiçik adamlar hamının başı üzərində hökmranlıq edirlər.

Bəli, bizim bütün dediklərimiz və yazdıqlarımız yersizdir. Hamımız əlaqəsiz yazırıq, hamımız süni və qeyri-təbii danışırıq. Milləti cəhalətdə saxlayıb özünü onun rəhbəri müərriflik etmək fırıldaqçılıq və hoqqabazlıq deməkdir. İlk növbədə milləti tərbiyə etmək, onu öz hütuqu ilə tanış etmək lazımdır. O vaxt millət öz yol göstəricisi və rəhbərini tapacaqdır.

Vilayətlərdə bir xəbər yoxdur. Orada adamların çoxlu çətinlikləri vardır. Xalq Tehranda da həmişə zülm və təcavüz olunduğunu, ağır vergilər müəyyən edildiyini, oğru və ləyaqətsiz məmurlar göndərildiyini görub bütünlüklə məyus olmuşdur. O, Tehrandan yayılan hər hansı şayiəyə bədbindir.

Tehranda nəşr olunan yüzdən artıq qəzetin, bəlkə də bir neçə nüsxəsi belə əsas kütlənin əlinə çatmır. Bir qayda olaraq xalq Fars dilində yazılan qəzetləri başa düşmür. Məclisdəki danışıqlar da millətin qulağına çatmır. Qanunlar içərisində hamıdan əvvəl ağır vergilər tələb edən qanunlar birinci növbədə vilayətlərdə tətbiq olunur və dərhal öz pis inikasını göstərir.

İran xəstədir! Ona ciddi surətdə dərman vermək və müalicə etmək lazımdır. Bədbəxtlikdən onun xəstəliyi hələ də müəyyən olunmamışdır. Yalançı həkimlərin əlilə onun boğazına tökülən dərmanlar zəhərdən də təhlükəlidir. Bir daha deyirik ki, millətin özü tərbiyə olunmadan, siyasi cəhətdən inkişaf etmədən hər nə desək, har nə yazsaq təsirsiz olacaqdır. Mən millətin maarif və tərbiyəsi haqqında yazmağa meyl göstərirəm. Lakin bunun nə faydası ola bilər? Maarif kökündən xarabdır, ümumiyyətlə ölkədə elə bir dövlət idarəsi tapmaq olmaz ki, xalqın həqiqi ehtiyacları üzərində qurulsun. Hamımız məhdud fikirləşirik. Bütün qanunlar bizim çatışmaz fikirlərimizin məhsuludur. Biz xəyallar və təsəvvürlərimizin çərçivəsindən kənara çıxmırıq. İctimai hadisələri öz bilik, idrak, əxlaq və arzularımıza müvafiq surətdə qarşılayırıq. Bu bizim yoluxucu xəstəliklərimizdən biridir.

www.achiq.info
Xalqın siyasi inkişafını, maarif və iqtisadi bazasını nəzərə almağa hazır deyilik. Buna görədir ki, qanunlarımız həyata keçirilmir, tədbirlərimiz kağız üzərində qalır. Sözlərimiz və təbliğatımız dərdsərdən və vaxt tələf etməkdən başqa ayrı bir nəticə vermir. Hərbi adamların dediyn kimi, həmişə yerində sayırıq və ya mövqeiyyəti dərk etmədən geriyə çəkilirik. Avamfiribliyi və fürsət dalınca qaçmağı özümüzə sənət edərək xalqı aldatmaq, naməlum nöqteyi-nəzər xatirinə işlərin ixtiyarını öz əlimizə keçirmək istəyirik. Suheyli, Qəvam, Said və onların tay-tuşları nə deyirlər, nə istəyirlər? Belə bir hərarət və qızğınlıqla çalışan Seyid Ziyaəddin hara getmək istəyir? Cahil və badbəxt bir millətə riyasət etməyin, bir xarab ölkəni idarə etməyin, çürümüş bir maşını sürməyin nə faydası və nə ləzzəti var. Əgər bu ağalar islahat yolunda müəyyən bir addım ata bilsəydilər, yenə də dərd yarı idi. Bu ağaların yaxşı niyyəti olsa da onlar heç bir iş görə bilməzlər. Çünki onların millət ilə mənəvi əlaqələri yoxdur. Milləti tanımırlar, onun ruhiyyəsinə bələd deyillər.

Deməli və yazmalı sözlər çoxdur. Lakin demək və yazmaq dərdsərdən başqa ayrı nəticə vermir. Buna baxmayaraq biz bədbin deyilik.

## TƏBPİZ SƏFƏRİNİN YOL QEYDLƏRİNDƏN

Özümüz də nə demək istədiyimizi bilmirik. Gündəlik hadisələrin cərəyanı bizi istənilən tərəfrə yönəldir... Mübarizəmizin hansı əsas üzərində getdiyini bir çoxları başa düşmür. Həmişəki kimi hər gün yuxudan durub iradəsiz surətdə qəti məqsədi təşxis vermədən, deyirik, yazırıq, bağırırıq, pis və çirkin sözlər işlədirik, hərarətimizi büruzə vermək üçün var qüvvəmizi sərf edirik. Lakin səbəbi məlum deyil. Mən heç də demirəm ki, hamımız öz iddialarımıza səmimi deyilik. Əlbəttə, ortamızda ictimai işləri maaş vəsiləsi etməyən və ya təbrizli dostumuzun dili ilə desək, dükan açmayan sədaqətli adamlar da tapılır. Minlərcə boş sözlərin və əsassız iddiaların içərisində kütlələlərin həqiqi ehtiyacları üzündən deyilmiş neçə kəlmə düzgün söz də tapmaq olur. Heç də hamımız yalançı deyilik. Şuluq bazardan suiistifadə edib xalqın papağını götürmək istəmirik. Bizim bir çoxlarımıza hərəkət verən əsas qüvvə iman və əqidədən ibarətdir. Bunu inkar etmək olmaz. Lakin bədbəxtlikdən mətləbdən çox uzaq düşmüşük. Dediklərimiz və yazdıqlarımız xalqın real həyatına uyğun gəlmir. Biz insaflı adamlar olsaq, öz cəhalət və nadanlığımıza etiraf etməli və deməliyik ki, həqiqi vəziyyzti və adamların həqiqi ehtiyaclarını başa düşməkdən acizik. Bizim iş qaydamızın, təfəkkür tərzimizin, gundəlik mübarizə taktikamızın möhkəm əsası yoxdur. Biz, sadə desək, etiraf etməliyik ki, çox dar və uzaq bir mühitdə ilişib qalmışıq. Azad dünya ilə əsla rabitəsi olmayan qaranlıq və xəfələyici bir çərçivə içərisində boş-boşuna əl-ayaq çalırıq... Həqiqətdə biz cəmiyyətin yuxarısında dayanıb ölkənnn əsas kütləsindən ayrılmışıq. Durduğumuz yerdən neçə addım aşaqı düşub həqiqətə yaxınlaşa bilmirik. Biz rəhbərliyi iddiasında olduğumuz cəmiyyət və adamlarla qaynayıb qarışmalı, onların xoşboxtliyi və məhrumiyyətlərinə şərik olmalıyıq. Bizimlə xalq arasında uçurum və keçilməsi mümkün olmayan sədlər meydana gəlmişdir. Sanki cəmiyyətin işləri yeni vergi qoymaq, idarələr düzəltmək, dövlət qulluqçularını yerbəyer etməkdən ibarətdir. İslahatdan söhbət gedəndə, bir kabinəni rədd edib yeni kabinə iş üsto gətiririk. Bir qayda olaraq hər işdə bu məsələləri nəzərdə tuturuq və çürümüş fikirlər üzərində qəzavət edirik. Qəzetlərimizdə nəşr olunan mövzuların 90 faizi yalnız bu qəbil, fərii məsələlərə həsr edilir. Xalqa sərvət hazırlayan, ümum üçun rahatlıq yaradan

www.achiq.info

zəhmət adamları ilə heç cür rabitəmiz yoxdur. Bizlərdən bəziləri əgər gahdan bir onların adını çəkiriksə bu qəti surətdə ya təsadüfi ya da öz şəxsi nöqteyi-nəzərimizi təmin etmək xatirinədir.

Bizim yazdıqlarımızdan və iddialarımızdan millətin ruhunun da xəbəri yoxdur. Biz ayrı söz deyirik, onlar isə ayrı şey istəyirlər. Əsas etibarı ilə millətin əksəriyyəti bizim dediklərimizdən və yazdıqlarımızdan istifadə edə bilmir... Millət bizə nisbət özünü biganə təsəvvür edir. Ona görə ki, onun işi, iqtisadi və ictimai vəziyyəti, hətta evi və yaşayış şəraiti ayrı cürdür. O, özünü tanıyan gündən bizi özünə nisbət təcavüzkar, qəddar və zalım bilmiş, heç vaxt öz vəziyyətini dəyişə biləcəyini təsəvvür etməmişdir. Bunların hamısını göydən düşmüş ehkam bilir və belə xəyal edir ki, səmalar onu məhkum, bizn isə, hakim, rəhbər və onun sahibi kimi yaratmışdır. Onun nöqteyi-nəzərincə bu vəziyyətin dəyişdirilməsi haqqında tədbirlər görmək faydasızdır. O, zəhmət çəkməli və işləməli, biz isə zəhmət çəkmədən, iş görmədən onun ağası, rəhbəri, hakimi və həməkarəsi olmalıyıq. Beləliklə, siyasi işlərə müdaxilə etmək, millətin öz müqəddəratında iştirak etməsi kütləyə əfsanə kimi görünür. Bu barədə bizim çoxlu müddəalarımız vardır. Lakin biz heç vaxt icazə vermək istəmirik ki, o ayağını öz yorğanından kənara çıxararaq bu qanuni hüququ ilə tanış olsun. Bu işdə bizim tərəfimizdən həyata keçirilən tədbirlərin də təsiri yoxdur. Biz kortəbii olaraq bu işin qarşısını alıb, kütlə isə sanki buna adət etmiş kimi dözür və heç nə demir.

Mən Azərbaycan kəndlərində siyasətə dəxalət etmək, ölkənin müqəddəratında iştirak etmək mövzuları haq qında kəndlilərlə çoxlu söhbət etdim. Onlar mənim sözlərimə diqqətlə qulaq asırdılar. Mən çalışırdım ki, öz fikirlərimi adi adamların başa düşdüyü sadə misallarla xalqın zehninə yeridim. Onların dediyindən görünürdü ki, mənim sözlərimi başa düşür və dəlillərimi qəbul edirlər. Buna baxmayaraq onlar dediklərimin heç birinin həyata keçirilməsini mümkün hesab etmirdilər. Xəyal edirdilər ki, mən onlar üçün nağıl deyirəm. Məsələn, seçki məsələsində mən sübut etmək istəyirdim ki, onlar diqqətlə və düzgün surətdə səs verdikləri təqdirdə öz müqəddəratlarının həll edilməsində dəxalət etmiş olurlar. Onlar çoxlu fikirləşdikdən sonra deyirdilər ki, dediklərimizin hamısı düzgündür. Lakin heç vaxt mümkün deyil ki, dövlət məmurları rəiyyətlərin qeydinə qalsınlar. Nümayəndələr bizim yükümüzü artırmasınlar, biz onlardan ayrı şey istəmirik. Ayrı bir yerdə, qəsdən uzatdığım çoxlu danışıqlardan sonra dedilər: Eşitmişik siz yaxşı adamsınız. Siz buraya gəlməzdən əvvəl də qərara almışıq ki, adınızı bülletendə yazaq. Lakin hər nə desəniz deyin bu hökumətdən, bu dövlətdən bizim heç vaxt gözümüz su içməyib və içməyəcək... Kəndlilərin təfəkkür tərzi belədir. Necə deyərlər, bir ovuc min xarvardan nümunə ola bilər. Gözünü açanda kəndxudadan, dehdardan, vergi toplayanlardan və nizam vəziyfə məmurlarından tutmuş ali rütbəli dövlət qulluqçularınadək hamıdan zülm, əzab, əziyyət, zorakılıq və təzyiq görmüş belə bir adamdan bizim başqa intizarımız da olmamalıdır.

Bəli, İran xalqları belə fikirləşirlər. Onun hökumətə və hökumət adamlarına etimadı ola bilməz. O, öz nümayəndəsinə deyir,.. Mən səndən heç bir ümid gözləmirəm, mənə zərər yetirmə!.. Bu sözləri deyənlər hələ şüur cəhətcə nisbətən inkişaf etmiş kəndlilərdirlər. Digər kəndlilər isə deyirdilər ki, biz kimə səs verdiyimizi əsla bilmirik. Ərbabın adamı gəlib, yazılmış kağızları əlimizə verib, deyir ki, aparın bunları sandığa salın. Ayrı bir kəndli isə gəlib dedi: Eşitdiyimə görə deputatlığa namizədlər səs toplamaq üçün pul verirlər. Mən də gəlmişəm öz səsimi pul verən adama verim. Başqa bir dəstə deyirdi: Deputatlar indiyədək bizim üçün nə etmişlər ki, işdən əl çəkərək onların seçilməsi üçün səs verək! Siz məclisə getsəniz

heç olmasa elə edin ki, bizə zülm olunmasın... çörəyimizi əlimizdən almasınlar. Nizam vəzifə və sərbaz yığmaq bəhanəsı ilə var-yoxumuzu qarət etməsinlər, inək və qoyunlarımıza dəyməsinlər. Susuzluqdan bütün əkinlərimiz dağılıb aradan gedir. Jandarmlar əlindən taqətimiz qalmayıb və

www.achiq.info
sairə... Onlar bu sözləri deyirdilər. Lakin hükumətin bu dərdlərə yetişəcəyinə inanmırdılar. Kəndlərdən birində içməli su tapılmadı. Bir kəndli qadın gedib yarımağaclıqdan su gətirdi. Bütün kəhrizlər və çeşmələr xarab olmuşdur. Kəndlilər isə bu haqda danışmağa belə cəsarət etmirdilər. Onlar belə güman edirdilər ki, biz ərbabın casuslarıyıq. Şikayət etsələr ərbabın qulağına çata bilər. Bəlkə də ərbabın özü ilə bu məsələ haqqında söhbət etmişdilər. Lakin gözlərinə dövlət məmuru kimi görünən bizlərə inanmırdılar.

Bu sözləri yazmaqla heç kəsə tohin və təhqir etmək istəmirik. Özümüz də bilirik ki, bu sözlərlə xalqın dərdinə əlac olmayaçaq. Jalnız istəyirik ki, xalqın təfəkkür tərzi haqqında oxucularımıza bir nümunə göstərək.

Seçki mübarizəsi başlanmışdı. Namizədlər bütün maddi və mənəvi vasitələrlə çalışırdılar. Səsin qiyməti hər dəqiqə artırdı. Şəhərin divar və qapıları seçki elanları ilə dolmuşdu. Hər kəs özünü bir yol ilə xalq kütləsinə tanıtmaq istəyərək çalışırdı ki, ümumün əfkarını özünə cəlb etsin. Təbrizdə, Tehransayağı həzrət Abbasla və allahla sazişə girmiş nümayəndələr tapılmasa- da xalqın məzhəb ehsasatı və dini etiqadlarından istifadə etmək istəyən namizədlər var idi. Hətta, bəzi tamahkar namizədlər ruhanilərin də əlini işə qatıb onların adından divarlara elanlar da yapışdırırdılar. Lakin xalq bu səslərə qulaq asmırdı. Bazar əhli seçkilərdə iştirak etməyi haram bilirdi. Onlar deyirdilər ki, dövlət zülmkardır, məclis müəyyən bidətlər qoymaqdan başqa ayrı iş görmür. Biz şəriət və dinin xilafına olan bir işdə dolayı yol ilə də olsa iştirak edə bilmərik. Hətta ruhanilər də öz rəsmi elamiyyələrinin əksinə olaraq gizlində həmin nöqteyi-nəzəri qüvvətləndirirdilər. Buna görə də bəzi nümayəndələrin çalışmasına və səyinə baxmayaraq bazar sakit və laqeyd görünürdü.

Məzhəb və din yolu ilə işə başlayan ağaların da oxu daşa dəydi və get-gedə məyus oldular.

Bunun əvəzində xalq kutləsi və fəhlələr daxilində çalışqanlıq hər dəqiqə daha artıq hiss edilirdi. Hər yerdə iclaslar keçirilir, mitinqlər və yığıncaqlar təşkil olunurdu. Xalqın ehsasatı həqiqətən artmışdı. Belə bir vaxtda bütun karxanaların nümayəndələri tərəfindən fəhlələr qarşısında millət nümayəndələrinin vəzifəsi və hazırkı vəziyyət haqqında məlumat verməyə dəvət edilmişdim. Məndən əvvəl neçə nəfər hərarətli sözlər danışaraq hazır olan şəxslərin ehsasatını cuşə gətirmişdi. Mən öz söhbətimdə xahiş etdim ki, fəhlələr öz nəzərlərini desinlər, öz ehtiyacları ilə bizi tanış etsinlər. Gənc fəhlələr hərarətli və ciddi çıxışlar etdilər. Birisi təzyiq və güzəranın ağırlığından, digəri sahibkarların rəhmsizliyindən, ayrısı əmək və ictimai sığorta qanunundan, xülasə hər kəs mənsub olduğu təbəqənin müəyyən ehtiyaclarından söhbət açıb demək istəyirdi ki, nümayəndələr həmin ehtiyacları aradan qaldıra bilsələr öz vəzifələrini yerinə yetirmiş olarlar. Onlar bildirirdilər ki, belə olduqda biz də bütun maddi və mənəvi qüvvələrimizlə onlara ardıcıl surətdə tərəfdarlıq göstərəcəyik.

Jaralı və məzlum ürəklərdən tam səmimiyyət və sədaqətlə çıxan bu sözlər dinləyicilərə təkan verirdi. Bu vaxt qoca bir kişi yerindən qalxdı. Məclis sakit idi. O, danışmaq üçün icazə istədi. Qoca natiqin köhnə paltosundakı böyuk ləkələr göstərirdi ki, o gön karxanasında ən ağır kimyəvi işlərlə məşğuldur. Onun yanında on iki yaşlı bir oğlan dayanmışdı. O, qocanın oğlu idi. Toxuculuq karxanalarından birində işləyirdi. Kişi bərk təsirləndi. Lakin öz fikirlərini izah edə bilir və sadə fəhlə dili ilə mənalı sözlər danışırdı. O, deyirdi: «Joldaşlar! Sizin bütün dedikləriniz doğrudur. Ehtiyaclarımızın həddi-hüdudu yoxdur. Lakin yaddan çıxarmayın ki, bu gün hər hansı hadisənin təsiri nəticəsində olursa-olsun, biz zahirən azadıq, bir yerə yığışıb söhbət edə bilirik. Ehtiyaclarımızdan danışıb onların aradan qaldırılmasını öz nümayəndələrimizdən tələb edə bilirik. Lakin aldanmayın! Qəflət pambığını qulaqlarınızdan çıxarın! Mən bu azadlıqlardan çox görmüşəm.

www.achiq.info
Biz Səttarxanın bayrağı altına toplanıb üsyan etdik. Cəmi bir neçə nəfər idik. Axırda hətta rəhmətlik Salar da saziş etdi. Müstəbidlər tərəfindən

sərdari-millinin yanına bir neçə nəfər nümayəndə göndərildi. Onlar dedilər ki, siz on nəfərdən çox deyilsiniz. Hədər yerə xalqı ölümə verməyin. Özünüzə layiq hər rütbə və iş istəsəniz verərik. Əgər bizə etimad etmirsinizsə qonşu dövlətlərdən birinin yardımından istifadə edə bilərsiniz. Sizə bir bayraq da göndərilsin və siz həmin bayrağın himayəsi altında amanda olun. Bizim bədənimiz əsirdi,. ürəyimiz od tutub yanırdı. Azadlığı sevmək təəssübü ruhumuzu elə həyəcanlandırmışdı ki, bütün dünya silahlı qüvvə ilə üzərimizə hüçum etsəydi belə onları darmadağın etmək bizim nəzərimizdə su içməkdən də asan görünürdü. Həmin ehsasata malik olan sardarımız elçini tam hörmətlə qəbul etdi. Lakin onun cavabı qəti və qısa idi. O dedi: «Burada qaldırılmış bayraq azadlıq bayrağıdır. Dünyanın yetmiş iki milləti həmin bayrağın altına pənah gətirməlidir. Biz təslim olmarıq. Gedin əlinizdən gələni əsirgəməyin».

Bu sözlər bizi bir daha ruhlandırdı. Qan tökdük, yonca yedik, məşrutə və azadlıq əldə etdik, lakin qısa müddətdən sonra irtica ayrı paltar və ayrı ünvanla baş qaldırdı. Sərdarımızı öldürdülər, özümüzü iydə ağacının şüyü ilə o qədər döydülər ki, dırnaqlarımız töküldü. Uzun müddət vətənimizi tərk etmək məcburiyyətində qaldıq. Mən sizi bədbin və məyus etmək istəmirəm. Gördüyünüz kimi, oğlum da sizin sinfi təşkilatınıza daxil olmuşdur. Özüm də bu yaşımda sizinləyəm və sizinlə olacağam. Mən yorğan-döşəkdə ölməyi namərdlik hesab edirəm. Lakin qəflət etməyib, bunu yaddan çıxarmayın ki, irtica və istibdadın bu dəfə qalib gəldiyi təqdirdə azadlığın və azadlıq sevənlərin kökü qalmayacaqdır».

Gözlərindən yaş axan bu qoca kişi öz oğlunun əlindən tutaraq salonu tərk etdi. Salondakıların hamısı ağlamışdı. Ayrı bir kişi seçki elanından bir neçə gün qabaq elə bir iş gördü ki, mən onu müşahidə etdikdən sonra seçkilərdə iştirak etməkdən istefa vermək fikrinə düşdüm. Bu adam, bələdiyyə süpürgəçilərindən biri idi. Dediyinə görə vaxtı ilə Səttarxanın tüfəngçilərindən olmuşdu. Bu hadisə, azadlıq sevənlərin seçkiləri sürətləndirmək üçün birgə teleqrafa qol çəkdirdikləri gündə baş verdi. Fəhlələrə və orta təbəqələrə mənsub adamlar dəstə-dəstə gələrək, teleqrafın mətni yazılmış böyük kağızın aşağısına qol çəkib gedirdilər. Mən azadlıq sevənlərin digər namizədlərindən biri ilə bir guşədə dayanıb himmətli və təəssüblü adamların həyəcan və ehsasatına tamaşa edirdim.

Süpürgəçi daxil olaraq, dəstəli süpürgəsini otağın bir guşəsinə dayayıb mizin yanına gəldi. Öz tunc möhrünü çıxarıb kağıza basaraq qayıtdı. O, süpürgəsini götürüb xaric olmaq istədiyi vaxt birdən-birə bizi gördü və ixtiyarsız olaraq süpürgəni bir kənara qoyub bizim yanımıza gəldi, heç söz demədən qollarını açıb bizi bağrına basdı, alnımızı öpüb, danışmadan çıxıb getdi. Mən mütəəssir olub özözümə dedim: Aya sən bu sadə ürəyin və təmiz ruhun arzularına əməl edə biləcəksən? Sən onun səadəti yolunda bir addım ata bi-ləcəksən?! Vicdanımda həmin suallara mənfi cavab verildi. Mən həmin gün bir çox yaxın yoldaşlarla ciddi surətdə sehbət edib, öz vicdani təşviş və iztirablarımı açıq surətdə onlara bildirdim. Onların verdikləri cavablar və gətirdiyi dəlillər qaneedici deyil idi. Yenə də öz vicdanıma müraciət etdim. Digər namizədləri bir-bir özümlə müqayisə etdim. Nəhayət, belə bir fikrə gəldim ki, bu işdən ayağımı geri çəksəm, mümkündür həmin biçarə süpürgəçinin həqiqi düşmənlərindən biri seçilsin. Mən isə əlimdən bir iş gəlməsə də heç olmazsa onun ağır yükünün üzərinə daha bir yük əlavə etməyəcəyəm. Birinci fəhlə, qeyd etdiklərimizdən məlum olduğu kimi azadlığın qorunması üçün əsirdi. Süpürgəçimin isə nə demək istədiyini bilmədik. Şayəd o bilirdi ki, mən də sairləri kimi onun səadətini təmin etməyə qadir olmayacağam. Yəqin ki, süpürgəçi də mənim azadlığa əlaqəmənd olduğumu və bu yolda can qoyub, zəhmət çəkib imtahanlar verdiyimi eşitmişdi.

www.achiq.info
Dostumu da yaxşı tanıyırdı. Onun haqqında da belə nəzəri ola bilərdi. Beləliklə, xəyal edirdi ki, əgər əlimizdən bir iş gəlməsə də, heç olmasa irtica və istibdadın qayıtmasına yardım etməyəcəyik.

Belə görüşlər çox olurdu. Mən fəqət onlardan ikisini misal üçün qeyd etməklə istədim ki, oxucuları Azərbaycanın əhvali-ruhiyyəsindən xəbərdar edim.

Dediyimiz kimi bazar hərəkət etmədi. Ona görə ki, bazar əhli hökumət və hökumət qulluqçularını bidət qoyan və zülmkar kimi taniyırdı. Axund isə siyasi işlərə qarışmağı üstüörtülü surətdə haram etdi. Ona görə ki, o, xalqı öz pəncəsi altında saxlamaq istəyirdi.

Fəhlə qorxurdu ki, istibdad ayrı bir şəkildə baş qaldırsın və iydə şüyü dırnaqlarını yenidən qaraltsın. O, öz vətənindən didərgin düşməkdən qorxurdu. Əsl düzgün təfəkkür bu idi.

Doğrudan da geçirilən seçkilərə sərf edilən pullar ifşa edilib irticaçıların daxili aləmi zahirə çıxarılsa, görərik ki, zəhmətkeşlər cəmiyyətə rəhbərlik etmək iddiasında olan hökumət və təbəqəyə qarşı haqlı olaraq zənin və bədbindirlər. Onların da arzuları bizim dediklərimizə uyğun gəlir. Beləliklə soruşmalıyıq ki, biz kimin və hansı sinfin mənafeyini qoruyuruq? Bu qədər hay-küyün kökü haradadır? Bu qədər zəhmət və məşəqqətlərdən sonra nəticə nə olacaq?!

**«Ajir» qəzeti no. 150-155, 12 iyun 1944-cü il (21 xordad 1323)**

## BİZ VƏ KEÇMİŞ ŞAH

Bizim ilə keçmiş şah arasında münasibətin müəyyən sabiqəsi vardır. Bu, keçmiş şahın ilk irticai addımından başlanmışdır. Biz onun diktatorluq təmayüllərini hiss etdiyimiz dəqiqədən etibarən öz ictimai borcumuzu yerinə yetirərək qələm və dilimizlə, risalələr nəşr etmək, firqə, ittihadiyyə və başqa təşkilatlar vasitəsi ilə mübarizəyə kömək edən bütün vasitələrdən istifadə etməklə açıq surətdə onun əleyhinə üsyan etdik. Bu mübarizənin uzun keçmişi vardır. Hətta keçmiş şahın təhlükəli işləri üzərindən hələ pərdə götürülmədiyi və onun bir çox irticai işlərinin tamamilə üzə çıxmadığı günlərdə biz uzunmüddətli təçrübələrimiz əsasında hiss etmişdik ki, həddindən ziyadə qorxulu və xətərli olan bu adam nə kimi təhlükəli yol tutmuş öz məqampərəstliyi, lovğalığı və tamahkarlığı ilə ölkəni haraya aparmaq istəyir... O gün bir çox adlı-sanlı azadxahlar xəbərsizlik və məlumatsızlıq üzündən zahiri vəziyyətə aldanaraq onunla əməkdaşlıq edib, onun pis niyyətli səltənəti üçün müqəddimə hazırlayırdılar. Bu keçmişi də inkar etmək olmaz.

O gün bizim vəziyyətimiz çətin və ağır idi. Lakin öz ehsasatımızın, habelə İran zəhmətkeş sinfinin adlı-sanlı nümayəndələrinin birliyi sayəsində keçmiş şah əleyhinə hücumlarımız gündən-günə daha şiddətli, daha dağıdıcı və daha möhkəm olurdu. Hələ də o vaxtkı azadixahlar yaddan çıxarmayıblar ki, biz onun «çevrilişinin səbəbkarı mənəm onun əleyhinə yazan qələmləri sındıracağam» ünvanlı məlum bəyannamənin cavabında yazdıq: «Sən kimsən və nə haqla istəynrsən ki, qələmləri sındırasan və dilləri bağlayasan?». Bu sözləri biz iyirmi iki il bundan əvvəl yazmışdıq. Bu hadisə onun diktatorluğunun şiddətli dövrünə aiddir. Bundan sonra mübarizəmiz bir an belə dayanmamalıdır. Bu iftixarlı mübarizə doqquz ilə qədər davam etmişdir. Onun bir-birinin ardınca qalib gəlib qəzəblə işğal etdiyi bütün səngərlərdə öz sinəmizi qalxan etmişdik. Əlbəttə, o gün, irticaın

təzyiqi nəticəsində bizim sayımız çox az idi, bugünkü kimi ictimai işlər azad deyildi, bugünkü kimi siyasi mübarizə meydanında hər hansı bir mənsəbpərəst və fürsəttələb adam öz atını oynada bilmirdi. Bugünkü kimi hər bir dəlixasiyyətli adam böyük bir firqəni uçuruma yuvarladıb dost, düşmən, xoşbin və bədbin adamlar haqqında istədiyini yazmağa cürət etmirdi. O günün şücaətli azadixahları öz aralarındakı sadə ixtilafları qəzetlərin səhifələrində əks etdirmək kimi avam bir işə əl atmazdılar. Bu, azadlıq mübarizəsi tarixində misli görünməmiş bir hadisədir. Bəli, o güpkü mübarizlər canla-başla işləyirdilər. Bu heç də özünü tərifləmək mənasında deyil, bizim o vaxtkı yazılarımızı hadisələr heç də bütünlüklə aradan aparmamışdır. Heç kəs qadir deyil ki, təşkilatlarımızın gördüyu işləri inkar etsin. Özünü həmin qeyrətli mübarizlərin varisi hesab etməyən şəxslər belə iddia edirlər ki, guya onlar birinci növbədə azadixahlıq mübarizəsinə başlamışlar, vay onların halına!

Dediyimiz kimi bu şiddətli və alovlu mübarizə doqquz il davam etdi. Riza xanı meydana çıxaran üsuli-idarə beynəlmiləl irticaın təsiri, faşizm və nasyonal-sosyalizmin meydana gəlməsi nəticəsində qüvvətləndi. O, azadlığın kökünü kəsmək üçün kəskin və qəddar tədbirlərə əl atdı. Bir çox qabaqcıl yoldaşlarla birlikdə bizi həbs edib Qəsri-Qacar zindanına göndərdi. O, yalnız həbs, sürgün və rəhmsizcəsinə öldürməklə deyil, hay-küy salmaq, müxtəlif ixtilaflar törətmək yolu ilə bizim kökümüzü kəsmək istəyirdi. Bu hadisələrin keçmişi vardır. Bu gün də təfriqə salmaq yolunda ilk addım atan hər hansı bir adam keçmişi yaddan çıxarmamalıdır. Biz on bir il həbsdə qaldıq. On bir illik təzyiq, məhrumiyyət, əzab-əziyyət və aclıq cismən bizi taqətdən salsa da, ruhiyyəmiz əvvəldə olduğu kimi yenə də qüvvətlidir. Hətta, zindanın daxilindəki ən ağır şəraitindəki vaxtlarda belə biz mübarizədən əl götürmədik.

Mübarizəmiz heç də özünü göstərmək və təzahür xatirinə deyil idi. Dəlilər kimi əsəbilik və ya məqampərəstlik üzündən özümüzü suya və oda vurmurduq. Öz işlərimizi ictimai mübarizə qaydalarına uyğun və planlı surətdə həyata keçirib, möhkəm addımlarla irəliləyir, həmişə öz abır və heysiyyətimizi qoruyurduq. Bunu xüsusilə qeyd etməliyik ki, bizim iyirmi illik mübarizəmizin heç vaxt xüsusi cəhəti olmamışdır. Biz heç vaxt ölkəni uçuruma sövq edən bir müstəbid acgöz və xudpəsənd adamdan öz şəxsi nöqteyi-nəzərimizlə intiqam almaq fikrində olmamışıq. Hətta şəhrivərdən sonra dil və qələmin nisbətən azad olduğu vaxt onun və həmkarlarının əleyhinə öz kin və xüsusi ehsasatımızı işə salmadıq. Biz həbs və sürgün olmağımızla alver etməyi qətiyyən xoşlamadıq. Mübarizəmiz daim inam və əqidə ilə əziyyət çəkən zəhmətkeş sinfin mənafeini qorumaq uğrunda cərəyan etmişdir.

Əlbəttə, biz öz ürəyimizdə həmişə keçmiş şaha nisbətən xüsusi kin və şiddətli düşmənçilik hiss edirdik... Biz, yalnız Pəhləvinin özündən deyil, eləcə də onun mənfur üsuli-idarəsindən intiqam almaq istəyirdik. Biz bu intiqamın qanlı və rəhmsiz olmasını istəyirdik.

Əlbəttə, bu kəskin ictimai hissin törənməsində bir növ xüsusi hiss də rol oynamış idi. Bu hissi, Hicazinin, Əli Şərqinin, Eraninin, Məhəmməd Ənzabinin, Məhəmməd Bağırın, Əli Ağapur Pəhmətinin, habelə siyasi mübarizə yolunda nəzmiyyənin qaranlıq zindanlarında can vermiş sair gənc azadixahların ölümü törətmişdi. Biz bu müqəddəs hissi həmişə qüvvətləndirməyə çalışıb, bundan sonra da onu heç vaxt unutmayacayıq.

Təbiət Riza xanı bizim pəncəmizdən çıxarıbsa da onun həmkarları və himayəçiləri, onun irticai üsuli-idarəsindən hələ də tərəfdarlıq edən adamlar aradan getməmişlər. Bunlar nəhayət bir gün intiqam tribunası qarşısında dayaimalı, tökdükləri nahaq qanların cavabını verməlidirlər.

Bu intiqam almağın müəyyən dərəcə xüsusi və yoldaşlıq cəhəti olduğuna baxmayaraq, o, heç də xüsusi kin deyildir. Ona görə də, Hicazilər, Ənzabilər, Əli Şərqilər, Eranilər, Seyid Məhəmməd

www.achiq.info
Tənhalar, Purrəhmətilər və sair bu qəbil mübarizlər heç də adi adamlar olmamışlar. Bunlar cəmiyyətin müəyyən sinfinin nümayəndələri olmuşlar. Riza xan polisi bunları yalnız ictimai hərəkatın qarşısını almaq üçün aradan aparmışdır. Riza xan özü də bizim və bizim kimi adamları heç də xüsusi və fərdi intiqam hissi ilə zindan məngənəsinin təzyiqi altına salmamışdı. O da bizləri özünün, eləcə də müəyyən sinfin mənafeyini qorumaq üçün vasitə olan usuli-idarənin müxalifləri və ciddi düşmənləri kimi tanınmış idi. O bizi boğmaqla müəyyən müxalnf ictimai qrupu aradan aparmaq istəyirdi. O, Şərqini, Ənzabini, Hicazini şəxsən tanımırdı. Eyni halda o şəxsi intiqam çəkməyi xoşlayırdı.

Əsas etibarı ilə kiçik adamlar şəxsi mübarizəyə, şəxsi intiqama, şəxsi kin bəsləməyə əl atırlar. Riza xanın mənəviyyatı o qədər zəif və kiçik idi ki, hətta ən əhəmiyyətsiz sözü özü üçün böyük təhqir hesab edərək, həmin sözü deyən adamdan rəhmsizcəsinə intiqam alırdı.

Bizim əqidəmizcə ictimai intiqam və kin bəsləməkdən qətiyyən göz örtmək olmaz. Lakin bizim ictimai mübarizəmizi öz qərəzli, kiçik və miskin baxışları ilə qiymətləndirən adamlar, bu mübarizənin və eləcə də bu yolda şəhid olmuş yoldaşlarımızın hiss və duyğularını dərk edə bilməzlər. Bu cür adamların mübarizəsi və intiqam çəkmək niyyətləri də şübhəsiz, nəzəriyyələri kimi qısa və fikirləri kimi çatışmazdır.

Bizim mübarizəmiz ictimai mübarizə olduğuna görə intiqamımız da qətiyyən və hər cür şəxsi qərəzlərdən azad olacaqdır. Biz iyirmi illik əzab-əziyyət çəkməsəydik belə yenə də bu intiqamdan göz örtməzdik.

**«Ajir» qəzeti, 12 mordad 1323, h. ş., № 174. 256**

## Hansı Firqə Doğru Və Düzgün Firqədir?

Nə üçün bir cəmiyətdə firqə və ya firqələr meydana gəlir? Firqə cəmiyət üçün faydalı dırmı? Doğru və düzgün bir firqənin rəhbərliyi olmadan bir cəmiyəti fəlakt və bədbaxtlıqdan nəcat vermək olarmı? Bir firqə yalnız öz üzvlərinin yardımı ilə məqsədə çata bilərmı? Firqə cəmiyətin əksəriyətini cəlb etmək üçün nə etməli dir?

Biz bir sıra ictimai məqalələr vasitəsilə yuxarıdakı sualları aydınlaşdırmağa və beləliklə mütərəqqi və milli Firqələrin gənc üzvlərinə öz mübarizələrində yardım etməyə çalışacağıq. Cəmiyətin iqtisadi və ictimai vəziyətini diqqətlə və düzgün əməli əsasda nəzərdən keçirdikdə insanların müxtəlif qurup və təbəqələrə bölünməsi aydınlaşır. Məsələn birisi mülkədardır, digəri ticarət edir, birisi fəhlə dir, öz qollarının gücündən başqa heç nəyi yoxdur. O birisi isə rəiyət dir. Bir iddə əl işləri ilə məşğuldur. Ayrı bir iddə isə bazar adamı dir və cəmiyətin diygər üzvlərinə lazım olan yaşayış vəsaytını alıb - satmaq hesabına dolanır. Bir sıra adamlar dövlət idarələrində işləyir. Diygər iddə cəmiyətin təhlükəsizliyini qorumaq vəzifəsini öz öhdəsinə götürmüşdür. Bəziləri ədliyə də qazılıq edir. Diygər iddə isə ibtidai, orta və alı məktəblərdə dərs verir, müəllim ya profesordur.

Nəhayət cəmiyə üzvlərinin hər biri istər təsadufi və istərsə də bilə - bilə öz iradəsilə müəyyən şüğl və peşə seçmişdir. Həmin şüğl və peşələr isə adamları dəstələrə, siniflərə və quruplara ayıraraq onların həyat tərzini, təfəkkür formalarını, hətta arzu və siyasi məqsədlərini müəyyən etmiş, cəmiyətdəki siniflərin hazırda gözə çarpan ziddiyətlərini və dərin ixtilaflarını meydana çıxarmişdir.

Eyn halda qeyd etmək lazımdır ki, bütün bu dəstə və siniflərin vəziyəti sabit deyil. Cəmiyətin bütün selluları iradəsiz olaraq fəaliyətdə olan bir cism kimi daimən hərəkətdə və inkişafdadır. Egər bütün dəstə və siniflər hərəkət və inkişaf etmələrinə baxmayaraq dəyişməz vəziyətə malik olub, onların təkamül və təbəddülatı həmahəng getsə idi, onda cəmiyət müəyyən dərcədə daxili mübarizə və bu günkü müxtəlif döyüşlər olmadan nisbətən sakit və aram həyatını davam etdirə bilərdi. Belə olduqda Firqələrin vücuduna bəlkə də o qədər ehtiyac olmazdı. Dövlətin və onun müxtəlif təşkilatlarının vəzifə və rolu bəlkə də müəyyən dərcədə azalar və ayrı şəklə düşrdi.

Lakin xoşbaxtlıqdan və ya bədbaxtlıqdan cəmiyətin həyatı bu cür sadə və yeknəsq deyil. Onun daxilindəki saysız hesabsız dəstələr öz mənafeləri uğrunda mübarizədə daimən bir - birinə toxunur və bir - birini əzib məhv etməklə irəliləyirlər. Buna görə də onların hərbirsi öz həyatına idamə vermək üçün özünü sayırlərindən daha yaxşı təchiyz etməyə və daha güclü hala salmağa çalışırlar. Bu yaşayış mübarizəsindən ictimai həyatın dəmir qanunlarından biri dir. Ölmək və ya yaşamaq məsələsi məhz burada tam mənası ilə qarşıya çıxır. Hər bir şəxs, hər bir canlı mövcud öz həyatını davam etdirməyə çalışdığı kimi hər bir sinif, dəstə qurup da eyn işi görür.

Hətta cəmiyətin özü də ümumi qanundan kənarda deyil. tarix sübut edir ki, bu mübarizə bəşərin ibtidai vəziyətdə yaşadığı, alətlərdən ilk istifadə etdiyi və azacıq mülkiyətə sahib olduğu günlərdən etibarən başlamış. ən qorxulu, qanlı və ən vəhşi maharibələrin cərəyan etdiyi bu günkü günə qədər, mütmadiyən davam etmişdir. Tarixdən danışmağa fürsət olmadığı üçün hazırkı dövrdə bəhs etmək istəyirik.

Azacıq diqqət etsək həmin bu geri qalmış cəmiyətiməzdə müxtəlif dəstə və siniflərin mənafe ziddiyətindən törənmiş cürbəcür mübarizələri görə bilərik. Məsələn fəhlə ilə kapitalist, ərbab ilə rəiyət, tacır ilə xırda alverçi, hökumət nümayəndələrilə adi adamlar istər - ısətməz öz xüsusi və ümumi mənafelərini qorumaq yolunda biri - birləri ilə mübarizə edirlər. Məhz həmin təbii mübarizədən siyasi, ictimai və fəlsfi fikərlər və müxtəlif nüqtəyi nəzərlər doğulur və həmin mübarizənin şidtliliyi və zəifliyi ilə əlaqədar olaraq o da şidətlənir və zəyəfləyir. Bəziləri diqqətsizlik, bəlkə də cəhalət və nadanlıq üzündən bunu cəmiyət üçün zərərli bilirlər. Onlar xəyal edirlər ki. dövlət təşkilatlarının yardımı, dəlil və nəsihətlə və ya öz dedikləri kimi ağıllı tədbirlər görməklə bu mübarizənin genişlənməsinin qarşısını ala bilərlər və ya onu bütünlüklə aradan apara bilərlər. Bu əlbəttə qələt bir fikir və puç bir xəyaldır. Ona görə ki, cəmiyəti yaşadan məhz mübarizə

www.achiq.info
dir. Döyüş, rəqabət, həsadət və mübarizə olmadan həyatın mənası yoxdur. Belə bir yaşayış davam edə bilməz. Bundan əlavə nə qədər ki, cəmiyətdə yüxsül və varlı, hakim və məhəkum, qüvətli və zəyiflər vardırsa, bunların arasındakı mübarizənin qarşısını almaq olmaz.

Bundan əlavə cəmiyət bir yerdə inkişafın müəyyən mərhləsində sabit və donmuş halda hərəkətsiz dayana bilməz. Hərəkətsizlik ölüm deməkdir. Mütləq durğunluq mümkün deyil. Hər bir canlı ya inkişaf etməli ya da məhvə doğru getməli dir. Həyatda orta həd mükün olası deyil. Həmin daxili çəkişmələr və mübarizələrin nətiycəsində cəmiyət irəliyə doğru gedir. Əsas etibarilə mübarizə olmadan irəliləməkk də mümkün deyil. zəif siniflər və dəstələr cəmiyətin inkişaf və təkamülünün ağır təkərləri altında əzılıb dağılaraq ortadan gedirlər. Mühit ilə ayaqlaşan və yaxşı silahlanan ünsürlər və dəstələr qalır, inkişaf edir və irliləyirlər. Bəşr cəmiyətinin inkişaf sirri, ictimai mübarizələrin kəsgin və ya zəif olması sirri məhz bununla izah edilir. Zənnimizcə bu qısa izahat bizi müəyyən qədər əsl məsələyə yaxınlaşdirdi. Belə xəyal edirəm ki, bu yuxarıda qeyd olunan suallara cavab vermək üçün bir vasitə dir. İndi yaxşı olar ki, həmin sualların cavabına başlayaq.

## Nə Üçün Bir Cəmiyətdə Firqə Ya Firqələr Meydana Gəlir?

Hər bir cəmiyətdə firqələr müxtəlif sinif və quruplara mənsüb adamların ölüm - dirim mübarizələrini mütəşkkil davam etdirmək üçün təşkil olunur. Məhz firqə təşkilatlarının köməyi ilə siniflər yaxşı silahlanıb var qüvvələrini işə sala bilərlər. Firqə təşkilatı vasitəsilə qabaqcıl siniflər öz yolu üzərində diygər siniflər tərəfindən törədilmiş müxtəlif maneələri aradan aparır və həmin vəsitə ilə cəmiyəti zavala məhkum olmuş siniflərin sövq etdiyi fəlakt və bədbaxtlıqdan xilas edə bilirlər. Nəhayət məhz firqə və ya firqələr inkişaf və təkamül vasitələrini fərahəm edərək cəmiyəti zəlalətdən çıxarıb, səadt və tərəqqi yollarına çatdıra bilirlər. Firqə və intizamlı bir təşkilat olmadığı təqdirdə də qabaqcıl siniflərin fəaliyəti irəliləyə bilməz. Geri qalmış tüfeyli siniflər öz meyl və iradələri ilə həyat mübarizəsi meydanından çıxıb təkamül üçün yol açmırlar. Əməldə bu iş heç də sərrast, sadə və asan formada baş tutmur. Ona görə ki, cəmiyətin müxtəlif dəstə və siniflərini bir - birindən ayıran heç də çin dıvarı yoxdur. Xüsusiylə geri qalmış ölkələrdə hətta dəstə və siniflərin mövqəyni müəyyənlşdirmək çətindir. Məsələn öz iranımızı götürək. Burada siniflər heç də tərəqqi etmiş ölkələrdə olduğu kimi kılasik formada gözə çarpmır. Mülkədarla rəiyət arasında, xırda mülkə darlardan ibarət böyük bir dəstə vardır ki, o, öz inkişafının müxtəlif dövrləri ilə bu iki sinifin ortasını doldurmuş. bəlkə də müəyyən dərcə də onları bir - birinə bağlamişdir. Şəhərlərdə ki fəhlələrimizdən çoxu hələ də peşə karlardan ibarət olub öz daxmalarında şagirdləri ilə bir yerdə işləyirlər. Sənaye sərmayadarlarımızın əksəri hələ də ticarətdən, hətta mülkədarlıqdan ayrılmamışlar. Buna baxmayaraq sənaye sahəsində təkamül qətiyyən daha sürətlə davam edir və burada mübarizə daha

www.achiq.info

ciddi şəkildə dir. Bunu inkar etmək olmaz. Şübhə yoxdur ki, zaman keçdikcə iki bir - birinə zidd olan və eyn halda bir - birinin meydana gəlməsində böyük amil sayılan iki böyük sinif meydana gələcək və diygər siniflərin və dəstələrin mübarizəsini kölgə altına alacaqlar. Biri kapıtalısətlər, digəri isə fəhlələrdən ibarət olan bu iki sinifin də yalnız nisbi istiqlaliyətləri vardır. təkcə İranda deyil, tərəqqi etmiş ölkələrdə də müxtəlif siniflər qəti surətəddə müstqil deyillər və siyasi mübarizədə diygər siniflərdən yardım almağa məcburdurlar. Bu yardım almaq və tərəfdar tapmağın özü də çox diqqətə layıq bir mövzüdür. Təəsüflər olsun ki, « Ajır» qəzetinin kiçik səhifələri həmin mövzünü şərh etmək və geniş yazmağa imkan vermir. Hər halda sadə dil ilə demək lazımdır ki, firqələrin meydana gəlməsi lüzumunu törədən, cəmiyət daxilindəki, ziddiyətlər və çəkişmələrdir. Bu ziddiyətlər və çəkişmələr gec - tez həmin firqələri meydana gətirir. Burada heç bir şübhə yeri yoxdur.

Dediyimiz kimi siniflər hələ bir - birindən çox da uzaqlaşmamışlar. Hhər bir dəstə müəyyən şəkildə sayr dəstələrlə əlaqədə dir. Bəzən bir neçə dəstənin mənafei tələb edir ki, onlar bir və ya neçə ayrı dəstənin əleyhinə ittifaqa girsinlər. Buradan isə başqa bir mübarizə meydana gəlir. Bu isə tərəfdar qazanmaq uğrunda firqələr arası mübarizə şəklində özünü buruza verir. Xüsusilə İran kimi geri qalmış ölkələrdə cəmiyətin müxtəlif dəstə və siniflərinin mənafei bir çox hallarda bir - birinə uyğun gəlir və eyn ləşir. Bu siniflərin mübarizə məqsədi bir çox hallarda bir və ya bir neçə müəyyən sinif əleyhinə yönəlir. Bu cəhətdən, habelə yuxarıda deyilmiş cəhətlərə əsasən İran kimi ölkələrdə firqə tam mənası ilə sinfi firqə ola bilməz. Əgər belə bir təşkilat olarsa qətiyən o çox zəif olacaqdır. Bu əsl üzrə dir ki, şərq ölkələrində ki firqələrin bir çoxu milli və kütləvi karakterə malik olur. Dediyimiz kimi, dəstələrin mənafei dəyişməz olduğu üçün milli firqələr də uzun müddət davam gətirə bilmirlər.

Demokrat Firqəsinin ( məqsəd xx əsrin əvəllərindəki İran Demokrat Firqəsi dir. ), meydana gəlməsi və aradan getməsi bizim nəzəriyəni təyid edən ən yaxşı və ən maraqlı dəlillərdən biri kimi göstərilə bilər. Demokrat Firqəsi habelə onun əmələ gəlməsi və aradan getməsi səbəbləri çox maraqlı və ictimai bir mövzüdür. Hamının təsdiq etdiginə görə əgər iranda yeganə doğru və düzgün firqə təşkilatı meydana gəlmişdisə o həmin qədim Demokrat təşkilatından ibarət olmuşdur. Məhz həmin qüdrətli firqə İran tarixində təsirli addımlar ata bilmişdir. Əsas etibarilə demək olar ki, qədim Demokrat Firqəsindən sonra meydana gələn bütün ayrı firqələrin rəhbərləri və təşkilatçıları qədim Demokrat Firqəsinin məktəbindən çıxmışlar. Bu heç də şişirtmə deyil. Qədim Demokrat Firqəsi tam şəkildə iranın o günkü mühitindən doğmuşdu. Mühitin dəyişilməsilə də o labud olaraq məhv olub aradan getməli idi . buna görə də həmin firqəni sonralar diriltməyə çalışan şəxəslər bihudə əziyətdən başqa heç bir səmər əldə etmədilər. Onun yalnız parlaq keçmişi, göstərdiyi fəaliyət və nizam. - intizamı, atdığı ciddi addımları bir şirin yuxu və xatirə kimi tarixin səhifələrində qalmişdir.

www.achiq.info

Hamı bilirik ki, Demokrat Firqəsi sinfi bir firqə olmamişdir. Onun hovzələrində ərbab və rəiyətə, tacır və alverçiyə, fəhləyə və bir sözlə cəmiyətin bütün siniflərinin nümayəndələrinə rast gəlmək mümkün idi. Nə tək firqə üzvlərinin, hətta firqə rəhbərlərinin də vahid ictimai məqsədləri yox idi. Buna baxmayaraq üzvlər çox həvəslə firqədə iştirak edir, onun şüarlarını cəmiyət daxilində yayır, onun nüfuz və hörmətini gündən - günə yüksəldirlər.

Qəti surətdə bu firqə yaşaya bilməzdi. Çünkü onun rəhbərləri təşkilatı genişləndirməklə firqə üçün zərərli amillər hazırlayırdılar. Buna baxmayaraq, iddia etmək olmaz ki, o vaxt iranda belə böyük milli firqə üçün zəminə yox idi. Bu məntiqsiz bir iddiadır. Demokrat Firqəsi sinfi cəhətdən daha artıq İran cəmiyətinin xüsusi tələbatı üzərində meydana gəlmişdi. İranın o günkü əhalisinin arzusu yalnız məmləkətin istiqlaliyətini qorumaqdan ibarət idi. Hamı yüksək millətsevərlik və vətənpərvərlik duyğuları ilə silahlanmişdi. Firqənin irəliləməsinə də səbəb məhz həmin duyğular olmuşdur.

Hamımız bilirik ki, o vaxt iranın xüsusi bir vəziyəti var idi. Onun istiqlaliyəti və ərazı bütövlüyü təhlikə altına düşmüşdü. Demokrat Firqəsi yeganə ümid və pənah yeri idi. İranlılar ölkənin xilas olunması yolunu məhz həmin firqənin bayrağı altında axtarırdılar. Bədbaxtlıqdan həmin məsələ əsasında firqənin məhv edilməsi vasitələri hazırlandı. Qərardad tərəfdarı olanlar firqədə parçalanma əmələ gətirib, onu aradan apardılar. Bu əlbəttə qüvəttli bir amil idi. Burada sinfi ziddiyətləri, təşkilatın ünsürlərinin yekcins və həmahəng olmamalarını da təsirsiz hesab etmək olmaz. Bu heç də təsadufi deyil ki, « zidd təşkili» adlanan demokratlar qurupunun biəynnamələrində torpaqların bölüşdürülməsi və sayr sol şüarlara rast gəlmək olurdu. Bir halda ki, Vusüqul Dovlə kabiynəsini müdafiə edən « təşkili»lərin şüarları ən mürtəce şüarlardan ibarət olmuş və bu gün də həmin şüarların bir çox ciddi tərəfdarları vardır. Hətta dünən də kudtaçı Seyid (məqsəd inəglis pərst Seyid Ziya Təbatbai dir ) eləcə də quldurluq üsul idarəsinin diygər tərəfdarları həmin şüarları əsasında xalqın çiyninə minmişdilər.

## Nə Üçün Bir Cəmiyətdə Firqə Meydana gəlir?

Yuxarıda qeyd etdik ki, Demokrat Firqəsinin əsas məqsədi və şüarlarına əsasən o tam mənada milli bir firqə idi, lakin o əməldə öz üzvlərinin sinfi ehtiyaclarını ödəməyə cəlb etdiyi müxtəlif ünsürləri özündən razı salmağa qadır olmadi. Buna görə də nəhayət gözlənilməz bir zərbə ilə yixildı və müxtəlif əqidələrə malik olan üzvlərin hər biri öz tipinə mülhəq oldu.

Bu acı tarixi təcrübə böyük milli firqə təşkil etmək istəyənlər üçün yol göstərici çıraq olmalıdır. Biz hamımız bu xoşa gəlməz hadisədən ibrət dərsi almalıyıq. Biz firqənin əhəmmiyyətini heç də

www.achiq.info
onun üzvlərinin çoxluğund axtarmamalıyıq. Keyfiəytə, kəmiyətdən daha artıq əhəmmiyyət verməliyik. Ona görə ki, ictimai işlərdə kəmiyətin fövqəladə təsiri ola bilməz. Məhz keyfiyət dir ki, adamları firqəyə bağlayır və həmişə onları « döyüşh»ə hazır vəziyətdə saxlayır. 14 cü məclis seçgilərinin təcrübəsi və bir çox siyasi firqələrin məğlübiyti bu fikri bir daha təsdiq etdi. Əgər firqələrin rəhbərləri firqəçilik təəsübünü kənara qoyub, firqə dəftərlərini əldə olunmuş rəylərlə müqayisə etsələr, istər - istəməz bu acı həqiyqəti təsdiq edəcəklər. Biz yenidən həmin mövzü üzərinə qayıdacayıq. İndi isə firqələrin meydana gəlməsindən söhbət açaq.

Bunu heç də inkar etmək olmaz ki, bəzən cəmiyətin mənafei vahid milli bir firqənin meydana gəlməsi lüzümünü qarşıya çıxarır. Lakin bu qəbil firqələr öz fəaliyətlərini cəmiyətin əksəriyətinin mənafei ilə tətbiyq etmədikləri təqdirdə, cəmiyətin müəyyən ehtiyacları təmin edildikdən sonra sıradan çıxırlar. Əlbəttə bəzən belə hallarda olur ki, müəyyən milli firqə öz mahiyyətini dəgişərək sinfi firqə şəklinə düşür. Bizim nəzərimizcə sinfi firqənin daha böyük məfhumu vardır. Biz firqələrin mahiyyətini müəyyənləşdirmkdə onların sinfi mövqeindən daha çox, həmin firqələrin məqsədinə əhəmmiyyət veririk. Bununla belə, sinfi mövqeiyyətin özünün də firqələrin müqəddəratında əsaslı təsirı vardır. Lakin firqəyə ad qoyduqda əsasən məqsəd nəzərə alınmalıdır.Əgər bir firqənin məqsədi cəmiyətin aşağı  siniflərinin hüququnu müdafiə etməkdirsə, əlbəttə o kütləvi firqə dir. Əgər onun hədəf və məqsədi yalnız fəhlələr və kənədlilərin vəziyətini islah etməkdirsə onun üzvləri daxilində fəhlə və əkinçilərə mənsüb adamlar olmasa da, nəhayət o firqə əməldə fəhlə və ya kəndli firqəsindən ibarət olacaqdır.

Bir çox hallarda bunun əksi də ola bilər. Məsələn, bir çox mütərəqqi ölkələrdə sərmayadarlıq üsulunu qorumaq, istismarçı  sinifləri müdafiə etmək üçün firqələr meydana gəlmişdir. lakin haman firqələr əməldə və gündəlik mübarizədə minlərlə fəhləni də özünə üzv edə bilmişdir. Dediyimiz kimi, firqənin cəmiyət daxilində tutduğu mövqeini müəyyənləşdirn amil onun məqsəd, arzu və fəaliyətindən ibarətdir. Firqələrin mahiyətinin dəyişməsi də həmin səbəb üzündən meydana gəlir. Məsələn Türkiyədəki « Xalq Firqəsi» öz təsisinin birinci mərhləsində tam mənada milli bir fəriqə idi. İndi isə orta vəziyətdə olan sinfi bir partiyadır. Çindəki Kumintang Firqəsi, Çin - Japon maharibəsinin başlanması ilə əlaqədar, tam mənada milli bir firqə olmuşdur. Rusiyə Komonist Firqəsi də yarım əsirlik kəsgin sinfi mübarizədən sonra bu gün tam milli vətənpərvər şüarlar altında hərəkət edərək vətən maharibəsinə rəhbərlik edir. Burada Rusiyə Firqəsi rəhbərlərinin realistliyi də böyük rol oınayır. Hələlik bu heyrətləndirci işi şərh və izah etmək bizi əsas mövzudan uzaqlaşdırar. Bu məsələni ayrı bir vaxta qoyub yuxarıda qeyd etdiyimiz sualların cavabına başlayaq.

Əlbəttə ictimai məsələləri riyazı məsələlər kimi sabit formullar və dəsturlar əsasında həl etmək olmaz. İctimai məsələlərdə təsir edici amillər çox dolaşıq və qarışıqdır. Onların hər birinin yerini və xüsusıyatını müəyyənləşdirmək üçün az çox formullar və qanunlar olsa da əməldə yenə də səhvlərə

yol verilir və əsas həlqə bəzən buraxılır. İctimai məsələlərin həl olunmasının ən yaxşı yolu şübhəsiz ki səbəbləri tapıb, onları təhlil etməkdən ibarətdir. İş, təkcə səbəbləri tapıb təhlil etməklə qurtarmır. Cəmiyyət daimən dəyişir. Hərəkət edir. Bir halı diygər hal əvəz edir. Səbəblərin özü də dəyişir və əvəz olunur. Zaman və məkan ictimai məsələlərdə insanı gicəldən böyük bir bəladır. İctimai məsələləri tədqiq edən bir adam labüd olaraq tarixin təkamül və sıçrayışını, zaman və məkanın mövcüd şərayitini və onların təsirlərini nəzərə almalıdır.

Gördüyümüz kimi, zaman sinfi bir firqəni bəzən milli bir firqə şəkilənə salır. Milli bir firqə də mürüri- zamanla sinfi şəklə düşə bilər. Müəyyən cəmiyət müəyyən vaxtda gözlənilməz və ya tədrici səbəblər üzündən çox qısa bir müddətdə böyük və qüdrətli bir firqə yarada bilər. Müəyyən cəmiyətdə sabiqəli, imtahanlardan çıxmış və bacarıqlı bir firqə isə bir sadə sıçrayış ilə elə aradan gedə bilər ki, onun ən kiçik əsəri belə qalmaz. Çox uzaqlara getməyək, həmin İtaliya Faşist Firqəsini götürək. Həmin firqə bütün təmtəraqları və hayküyləri ilə görək nə oldu? Hara gedib çatdı?! Nə üçün Musolini bütün İtaliya xalqını qeyd olunan firqənin bayrağı altında saxlaya bilmədi? Təbii dir ki, maharibənin təsiri Faşist Firqəsi rəhbərlərinin diyvanəlik hərəkətlərilə bu firqə öz milli xasiyətini itirərək alman Nasional - Sosiyalizminin casusu dərcəsinə qədər alçaldı. Sabah Nasional Sosialist Firqəsi də qətiyən həmin müqəddərata uğrayacaqdır.

Bütün bu təbddulata baxmayaraq ümumi üsul dəyişmir. Siyasi firqələrin əsasi payası qəti surətdə sinfi mənafe üzərində qurulur. Milli firqələrdə, labüdd olaraq sinfi mənafe əsasında qüvvətlənir. Məsələn, bu gün Çində bütün siniflərin mənafei bundadır ki, Japonlar vətəndən qovulsun və Çinin birləşdirilməsi şüarı həyata tətbiyq olunsun. Komintang Firqəsi bu böyük şüarın bayraqdarı dir, dünənki Türkiyədə də bütün siniflər istiqlaliyət əldə olunmasına və xarici qoşunların ölkədən çıxarılmasına əlaqəmənd idilər. Buna görə də onlar istər - istəməz həmin yolda mübarizə edən firqənin bayrağı altına toplaşmağa məcbür idilər.

Yuxarıda dediyimiz kimi, bizim ölkəmizdə siniflər çox da bir - birlərindən uzaqlaşmayıblar. Xüsusiylə fəhlələr, əkinçilər, xırda alverçilər və sənətkarlar kimi aşağı sinif və təbəqələrə mənsub olan adamların bir çox məsələlərdə birgə mənafeləri vardır. Buna görə də iranda tam mənada sinfi bir firqə üçün zəminə yoxdur. Hələlik iranda o firqə və hizəblər irliləyə bilərlər ki, birgə mənafeə malik olan qeyd etdiyimiz siniflərin mənafeyni qorumağı özələri üçün məqsəd qərar versinlər.

Söz yox ki, siyasi firqələr sinfi mənafe üzündən meydana gəlir. Lakin əməldə məsələ belə sadə və asanlıqla həl olmur. Gündəlik cərəyanlarda müxtəlif dolaşıqlıqlar və çətinliklər meydana çıxır. Bunlar isə mətləbi qaranlıqlaşdırır. Nəticədə, ilk baxışda hadisənin kökünü dərk etmək olmur. Şübhəsiz bir sinf o vaxt sinfi mövqe tuta bilir ki, öz sinfi mənafeini ayrıd edib, həmin mənafei qorumaq və hifz etmək xatirinə döyüşə başlasın. Lakin nəzərə almaq lazımdır ki, hər bir sinfə

www.achiq.info
mənsüb olan üzvlər məlumat, siyasi yetginlik və ictimai məsələlərə əlaqə bəsləmək cəhətdən bir səviyiə də deyillər. Buna görə də hər sinf və cəmiyət daxilində ziyalı və uzaq görən əqəlliyət qabağa düşür, sinf və cəmiyətə rəhbərlik edir. Söz də həmişə həmin tip üzərində getmişdir. məhz həmin tipə daxıl olan şəxəslər xətərli vaxtlarda ittifaqa girməyi və cəmiyətə nəcat verməyi söyləyirlər. Biz ittihad və birliyi ayrı cür başa düşürük. Bizim nüqteyi nəzərimizcə uzun müddətli ittifaq, düzgün əsas və təşkilat üzərində qurulmadığı təqdirdə baş tuta bilməz. Mümkündür, çox qısa müddət üçün müəyyən iddə bir yerə toplansın. Lakin belə cəmiyətlər istənilən nətiycəyə çata bilmirlər.

Müttəfiq olanlar öz işlərinə davam etdirmək xatirinə, işlərinə müəyyən tərtiybat verməli, nizam intizam əmələ gətirməli, öhdəçilik götürməli və əhd - peyman bağlamalıdırlar. Onlar düzgün plan və proqram hazırlamalıdırlar. Xüsusiylə görülücək işləri öz adamları arasında bölüşdürməli dirlər. Firqə də buradan meydana gəlir. Bir daha təkrar edirəm ki, görkəməli adamların ittifaq və birliyi olmadan cəmiyət islahata tərəf irəliləyə bilməz. İttifaq və birlik nizam və intizam üzərində qurulmalıdır. Nizam və intizam isə firqə şəklində zahir olur. Bəziləri firqəni həmfikr və həm əqiydə adamların toplandıqları sadə və qondarma bir təşkilat kimi başa düşürlər. Bu firqə məfhumunu aydınlaşdırmır. Firqə irəlini görən məlumatlı və həmfikr adamların iştirak və əməkdaşlığı ilə yaranan və cəmiyəti müəyyən məqsədə doğru yönəldən münəzzəm və ciddi bir təşkilatdır. Məramnamə və nizamnamə məsələsi də buradan meydana gəlir. Məramnamə əsas məqsəd, nizamnamə isə elə bir vasitə dir ki, firqə onun yardımı ilə sinifin və ya cəmiyətin görkəməli adamlarının ittifaq və birliyini həyata keçirir. Lakin əməldə təkcə məramnamə və nizamnamə heç də kifayətləndirci deyil. Tarix dayanmır, gündəlik mübarizənin cərəyanı hər gün bəlkə hər saat firqə üçün taza vəzifələr meydana çıxarır. Buna görə də deyirlər ki, firqə gündəlik məsələlər barədə düzgün təsmim tutmaq üçün taktikaya malik olmalıdır. Firqə öz fəaliyətini yalnız məramnamə və nizamnaməni öyrnməyə həsr etsə o, canlı firqə olmaz. Firqəni yaşadan və inkişaf etdirən onun gündəlik fəaliyətindən, gündəlik düşündüyündən və düzgün taktikindən ibarətdir. Böyük siyasi bir addım müəyyən kiçik və əhəmmiyyətsiz bir firqəni elə dirçəldə bilər ki, o bir cəmiyəti irəliyə aparmağa qadır olar. Əksinə bir çox hallarda da, yalnız müəyyən siyasi səhv güclü və qüdrətli bir firqəni ayaqdan salıb aradan aparar. Biz bu məqalədə bu günkü firqələrin xüsusiytından bəhs edrkən yuxarıda qeyd etdiyimiz rəvyiədən kənara çıxmamağa çalışacağıq. Yazılarımızda əgər müəyyən işarə və kinayə hiss olunsa bu qətiyətlə qərəz hesab edilməməli dir.

Hər halda bəzi firqə üzvlərinin öz məram və məslklərini təbliğ etməkdə çox mütəəssib olduqlarını görürük. Bu çox yaxşı dir, lakin zərərsiz də deyil. Zərəri bundaddır ki, adamlar gündəlik fəaliyət cərəyanında əsas məqsdi yaddan çıxararaq xəyal edirlər ki, firqə cəmiyətə yardım üçün deyil, bəlkə cəmiyət firqənin irliləmə si üçün lazımdır. Öz üzvlərini həmin qələt pirənsip üzərində tərbiyələndirən firqələrə demi firqələr deyirlər. Firqənin demi olmaması üçün onun başında kifayt qədər siyasi və ictimai məlumatı olan rəhbərlər durmalıdır. Firqə elə bir təşkilat deyil ki, hər bir adam

öz meyli ilə harada istəyirsə öz səliqəsinə uyğun surətdə onu yaratsın və öz məqsədi üçün ondan istifadə etsin. Firqə elə bir böyük siyasi təşkilatdır ki, o müəyyən cəmiyəti öz səliqəsinə uyğun şəkildə idarə etməli və onu böyük ictimai məqsədə çatdırmalı dir. Bunu hər bir adam edə bilməz. Bu böyük meydanda hər hansı həris və həvəskar adam öz hünərini göstərə bilməz. İctimai təşkilatı bir binaya oxşatmaq olar. Binanı tikən mühəndisə tekniki bilik lazım olduğu kimi cəmiyəti idarə edən şəxsə də ictimai bilik lazımdır.

Bunu da qeyd etmək lazımdır ki, sağlam nəzəriyə, dəqiq əməli plan olmadan, siyasi və ictimai fəaliyət göstərilmədən nəticə əldə edilə bilməz. Buna görə də dolayı yolla cəmiyətin rəhbərləri sayılan firqə rəhbərləri gərək firqə və cəmiyətinin ən uzaq görən, ən ziyalı, ən pak və ən fəal üzvləri olsunlar.

Nəhayət firqə öz - özünə meydana gəlmir. Onu təşkil edirlər. Burada təbii cərəyandan daha çox iradə, meyl, bilik və ağıl işltəmək lazımdır. Bu işdə yenə də uzaq görənlik, siyasi məlumat, cəmiyətin ehtiyaclarını başa düşmək mühüm rol oınayır. Firqəni idarə etmək firqə vasitəsilə xalqı firqəyə sövq etmək, kütlənin yardımı və köməyi ilə cəmiyəti islah etmək asan iş deyil. Öz başına və lovğa adamlar heçvaxt belə bir təşkilatın başında dura bilməzlər. təşkilatda avam fəribliyin, lovğalığın heç bir faydası yoxdur. Yalnız təəsüb və fanatizm ilə iş aparmaq olmaz. Firqə rəhbərləri firqənin məqsəd və əsas pirinsiplərini nəzərə almaqla gündəlik işlərdə bir fərmandeh kimi dəqiq və məlumatlı olmalıdırlar. Firqəni, cəmiyətin başı hesab etsək, rəhbərlər və liderlər onun beyini sayılırlar. Təbii dir ki, beyin naqis və xəstə olduğu təqdirdə baş və bədənin ayrı üzvləri də öz vəzifələrini lazımınca həyata keçirə bilməyəcək. Bir tək firqənin başçıları deyil, bəlkə firqənin bütün üzvlərinin hər biri də öz mövqeyində tutduğu vəzifədə ləyaqət və bacarığa malik olmalıdır. Firqə bir də həmfikr adamların toplandığı yer deyil. Firqə elə bir doğru və düzgün təşkilatdır ki, düzgün məqam bölgüsü, iş bölgüsü, onun fəaliyətinin əsasını təşkil etməlidir. Belə olmadığı təqdirdə işlər irəliyə getməyəcək. Firqə elə bir təşkilatdır ki, insanların iradəsi ona təsir göstərir. Lakin bu iradə məhv olub və ya aradan getməyərək mərkəzdə, firqənin rəhbərliyində təmrküz tapır. Firqə haqiqətdə butun uzvlərin, butun kütlə və təbqələrə mənsub adamların iradəsinin məzhri dir.

## Kimlər Rəhbər Ola Bilərlər

Yuxarıda qeyd etdiyiməz kimi, firqələrin müqəddəratında rəhbərlərin ictimai mövqeyyəti, əxlaq və bilik səvviyələri və siyasi yetginliklərinin böyük rolu vardır.

Məhz düzgün iş görən, diqqətli, istedadli və bacarıqlı rəhbərlər təcrübəli kapitanlar kimi firqənin, habelə sinf və cəmiyətin gəmisini ictimai mübarizənin fırtınalı oqyanusundakı burağanlar və

www.achiq.info
su altı qayaların ortasından keçirərək nəcat sahilinə çatdıra bilərlər. Hər adi bir şəxs rəhbər ola bilməz. Rəhbər ümumi biliyə sahib olmaqdan əlavə öz duhası, fədakarlığı və candan keçməsi ilə habelə bacarıq və istedaı ilə firqə və sinfin başqa nümayəndələrindən fərqlənir və bununla da cəmiyətin daxilində özünə hörmət və nüfuz qazanır. Bir cəmiyətin rəhbərlik məqamına şübhəli və ya yeni ərsəyə gəlmiş adamlar keçdiyi təqdirdə, onlar ümumun etimadını qazana bilməzlər. Nə tək bitərəf şəxəslər hətta firqənin üzvləri də belə bir adamın ardınca getmiəcəklər.

Bədbaxtlıqdan bizim ölkədə bu məsələ əksinə dir. Səhər yuxudan tez ayılan hər bir həris adam rəhbərlik iddiasına düşür, başını başlara qatır. O, öz nüfuz, hörmət və ictimai mövqeini nəzərə almadan cəmiyətə başçı olmaq istəyir. Bu məqsədə çatmaq üçün ilk addımda başqalarının nüfuzunu qırmağa, pak və layiq adamları bədnam etməyə başlayır.

Mən cəmiyətin rəhbərliyi iddiasında olub, fəaliyət edən bəzi hərartli və həris cavanların bir çoxu ilə işləmişəm. Təəsüflər olsun ki, uzun müddətli sınaqlar keçirdikdən sonra belə bir nətiycəyə gəlmişəm ki, cəmiyəti iflic etmiş bir çox hayküylərin və söyüşbazlıqların, habelə bir çox firqələrin müvəffəqiyyətsizliyinin mənşəi həmin dili uzun tiplərdir. Elə alçaq və ləyaqətsiz ünsürlər tanıyıram ki, öz gündəlik həyatlarında, necə deyərlər, iki atın arpasını bölməyə qadır olmadıqları və bütün ömürləri boyu cəmiyət üçün hətta əsaslı bir addım atmadıqları və xalqın mənafei yolunda heç bir iş görmədikləri halda tam həyasızlıq və vəqahətlə firqə və cəmiyətin rəhbəri, ölkənin başçısı olmaq istəyirlər.

Mən burada bir qədər daha acı sözlər demək istəmirəm. Haqq söğzü qiymətləndirən xeyrxah adamlar acı həqiyqəti yaltaqlıqdan daha çox xoşlayırlar. Bu gün dünyanı firqələrin rəhbərləri idarə edirlər, böyük Rus xalqının, İngiltərə və Amrikanın müqəddəratı firqə rəhbərlərinin əlinə tapşırılmişdir. Bizim hökumət və kabinələrimiz qüdrətli firqə təşkilatına və cəmiyətin rəhbərlərinin böyük nüfuzuna arxalanmasalar, bu günkü mürəkkəb dünyada öz üzərlərinə götürdükləri fövqəlaadə ağır vəzifələrin öhdəsindən gələ bilməyəcəklər. Vəzirlərimizi, başçılarımızı bir an diqqətlə nəzərdən keçirin! göstərin görək, bunların hansı xalq üçün işləmiş, cəmiyətin təşkili işində, kütlələrə rəhbərlik işində, siyasi firqələrin təşkilatında zəhmət çəkib imtahan vermiş və öz qabliyət, ləyaqət və bacarığı nətiycəsində cəmiyətə rəhbərlik etmək mövqeinə gəlib çatmişdir? Şəhərivr dən sonra İranın paytaxtında bir neçə Firqə meydana gələ rək, az - çox müəyyən iddə ni müvəqqəti olsa da öz ətraflarına tulamışlar insafla qəzavət edib görk onlardan hansı biri cəmiyətin müqəddəratında, ölkənin gündə lik siyasastində, nəhayət hökumət işlərində dəxalət edib, öz rəhbərlərindən bir və ya neçə nəfərini ölkənin başçılığına təyin edə bilmişlər? şübhə siz ki, onlardan heç biri bu işi görə bilməmişdir. Demək biz qeyd etsək ki, siyasi firqələr və quruplərın layiq rəhbərləri olmadığına görə, onlar gündəlik siyasət meydanından uzaqlaşaraq klublar və təlim - tərbiyə təşkilatları kimi bitərəf cəmiyətlərin işini görürlər, bu, heç də səhv deyil. Daha bir bədbaxtlıq bundan ibarətdir ki, bəzən

görünür ki, bir ya neçə nəfər ləyaqətsiz başçı öz məqsədini yeritmək, cəmiyyətə özünü təhmil edə bilmək üçün cürbəcür vədələrlə bir iddəni siyasi firqə adi ilə öz dövrəsinə toplayır. Lakin çaydan keçən kimi, ya xud xalq içərisində deyildiyi kimi, arzu eşşəyinə minən kimi xalqı və cəmiyyəti yaddan çıxararaq əməldə elə işlər görürlər ki, başqaları həmin adamların işə saldıqları vasitələrdən istifadə edə bilməsinlər.

İranın hökumət və milli təşkilatlarının təfərrüatı haqqında uzun - uzadi mübahisələr olur. Biri deyir ki, əgər filan idarə islah olunsa bütün işlər düzələr. Digəri bildirir ki, filan vəzir və ya filan baş müdürün yeri alınıb ayrı bir şəxsə verilsə İran bəhiştə çevrilər. Bəziləri isə müəyyən vergi və ya da dövlət məxaricinin müəyyən maddəsi barədə fikr söyləyib deyirlər ki, başqa bir hökumət iş başına keçib, müxtəlif məsələlər barədə onların meylinə uyğun surətdə tədbirlər görərsə bütün işlər səhmana düşər. Bizim əqiydəmizcə, bütün bunlar cəmiyyətimizin üzvlərinin siyasi şüurunun inkişaf etməsinin nəticəsidir. Bu gün bizim cəmiyyətimizin müqəddəratı onun öz əlində deyil. Bu öz başına və demi adamların hansı ictimai əsas üzrə haradan meydana gəlmələri məlum deyil. Bu qondarma adamların başqalarına nisbət nə kimi üstün cəhətlərə malik olmaları bəlli deyil. Məsələn, nə üçün bunlar vəzir və baş müdür ola bilərlər, başqaları isə yox?! İctimai işlərdə bu aqaların verdikləri imtahan və göstərdikləri ləyaqət nədən ibarət olmuşdur. Hansı sinf, hansı firqə, hansı cəmiyyət bu adamların arxasında dayanır? Bütün bu sualların cavabı mənfi dir. Demək iranın qarşısında yalnız bir yol vardır, bu isə layiq, seçilmiş, fəal, pak və imtahan vermiş adamlar hazırlamaqdan ibarətdir. bu iş doğru - düzgün firqə olmadan mümkün ola bilməz. Bədbaxtlıqdan siyasi firqələrimizin də gözü qorxub, onlar da özələri üçün yol göstərən rəhbər hazırlamağa cürət etmirlər. Onların haqqı var, çünki, cəmiyyətin rəhbərləri indiyə dək yaxşı imtahan verməmişlər. Bundan əlavə rəhbərlik iddiasında olanların sayı o qədər dir ki, sadə adamlar çaşırlar. Onlar bilmirlər, bu rəhbərlərdən hansını seçsinlər. Bundan başqa sadə adamlar özələri ilə rəhbərlik iddiasında olanlar arasında fərq görmürlər.

Rəqabət isə bunların hamısından daha pisdir. Bu elə bəladır ki, bugünkü siyasi təşkilatları və firqələrin heç biri öz yaxasını onun pəncəsindən səlamət qurtara bilməmişdir. Məsələn, mənsüb olduğunuz firqə və ya cəmiyyətin üzvlərindən birini diygər yoldaşlarınızın yanında tərifləyin. Onda görəcəksiniz ki, sizə nə kimi cavablar verəcəklər. Həmin adam təriflədiyiniz şəxs haqqında nə kimi eyəblər, hətta bəni israyil nüqsanları tapıb qondaracaqdır.

Buna baxmayaraq gec - tez cəmiyyət özünə təkan verəcək, müəyyən firqələr və rəhbərlər meydana gətirəcəkdir. Çox uzağa getməyək. İranın həmin məşrutə inqılabını diqqətlə nəzərdən keçirdikdə yeni tarixin həmin dövründə elə parlaq ulduzlara təsaduf edə bilərik ki, İran cəmiyyəti onların adını hələ də hörmətlə yad edir. Bəziləri həqiyqətə uyğun olmayaraq bu böyük ictimai nehzəti qeyritəbii və sünii hesab edirlər. Lakin qeyd etdiyimiz böyük himmətli və nüfuzlu rəhbərlərin meydana gəlməsi həmin nehzətin təbii olduğunu göstərir. Bu nehzətin parlaq siymaları, əzab və

əziyətlər görmüş İran kütlələrinin ürəyindən baş qaldırmişdir. Hər bir nehzət, hər bir böyük ictimai hərəkat istər - istəməz cəmiyətə təkan verib, xalqa yol göstərmək üçün müəyyən adamlar irəli çəkir. Əgər bu adamlar ləyaqətli, can yandıran və düzgün olsalar, cəmiyət öz nehzət və hərəkətindən lazımı nətiycələr əldə edə bilər. Əksinə pozğun və ləyaqətsız ünsürlər rəhbərlik məqamını işğal etdikdə cəmiyət özünü yeni bədbaxtlıqlar və fəlakətlər üçün hazırlamalıdır. Burada, iyirmi illik başçılarimiz, həmin iddialar üçün ən aydın və qənaətləndirici dəlil kimi göstərilə bilər. Əgər bu adamlar ləyaqətli və düzgün olsaydılar bu iyirmi il ərzində İran xalqının əlinə düşdüyü fürsətdən istifadə edə bilərdilər. Faşızm və Nasional - Sosializm rəhbərlərini də misal göstərmək olar. İtaliya və Alman millətlərinin düçar olduqları bu günkü bədbaxtlıqlar və fəlakətlər onların rəhbərliynin ləyaqətsızliyi, bacarıqsızlığı və divanəliyi üzündən törənəmişdir. Bunun ayrı dəlil və səbəbi yoxdur.

Beləliklə firqənin və eynhalda cəmiyətin rəhbərlərinin rolu çox böyük və əhəmmiyyətli dir. Cəmiyətə təsir edib, xalqı öz məqsəd və hədəflərinə doğru yönəltmək istəyən firqələr rəhbər mövqələrini başa düşüb özlərinə təcrübəli diqqətli və düzgün rəhbərlər tapmalıdırlar. Bu doğru və düzgün firqə üçün çox lazım olan şərtlərdən biri dir.

## Firqə Kadrlarının Əhəmmiyyəti

Qeyd etdik ki, doğru və düzgün firqə öz fəaliyətini təkcə məram təbliğ etmək və öz üzvlərini artırmaqda dayana bilməz. Belə bir firqə həyatda muqavımət göstərib yaşaya da bilməz. Onun rəhbərləri isə heçvaxt öz məram və məqsədlərinə çata bilməzlər. Canlı firqə öz əsas məqsədini qoruyub saxlamaqla birlikdə cəmiyətin daxiylinə getməli, bütün gündə lik ictimai və siyasi işlərə qarışmalı, kütləvi, sinfi və ümumi nehzətlərdə və hərəkatda qəti və aydın şüarlara malik olmalıdır. Firqə rəhbərliyi olmadan hərəkat, nehzət və üsyanlar cəmiyət və xalq üçün xətərli və zərərli dir. Firqəsiz və rəhbərsiz kütlə kor təbii yanqın kimi dir. O hərəkətə gəldiyi təqdirdə qarşısındakı bütün quru və yası yandırıb məhv edər. Sərdar sipəhin kudetası, Seyid Ziyanın isə kor - korana surətdə onun ardına düşməsi məhz həmin təhlikləli qiyamlardan olmuşdur. 17 azər hadisəsi səltənətin dəyişməsindən əvvəl cümhüriyt tələblik nehzəti və sairə, firqəsiz və məqsədsiz xətərli hərəkatın müxtəlif nümünələrindən ibarət olmuş və hamımız onların pis nətiycələrindən xəbrdarıq. Faydalı hərəkatın hökmən təşkilatı, nizam - intizamı və məramnaməsi olmalıdır. Bu gün belə dir. On ildən sonra yenə də belə olacaqdır. Öz özünə meydana gələn müvəqqəti nehzətlərdə fürsət tələb və xətərnak adamlar irəliyə atılaraq xalqın ehsasatından, kütlənin qəzəb və nifrətindən suistifadə edib, cəmiyəti xətərli yollara çəkib aparırlar. Vaxtiylə Seyid Ziya, Sərdarsipəh və Xalesi Zadələr belə işlər görmüş və indi müşahidə etdiyimiz kimi, İran xalqı haman intizamsız, firqəsiz və rəhbərsiz hərəkatın acı meyvələrini yemkdə dir.

www.achiq.info

Öz iş uslubumuza əsasən biz şəxsiyətlər haqqında danışmaq istəmirik. Bizim məqsəd və arzularımız heç də şəxəsləri, xüsusi ilə təsadüflər nəticəsində, tariyxi hadisələrin üzə çıxardığı adamları ifşa etməkdən ibarət deyil. Bu təsadüfi ünsürlər hərzə otlar kimi, gec - tez quruyub aradan gedirlər. Xalq və cəmiyət isə qalır və öz təkamül və inkişafını davam etdirir.

Biz firqədən bəhs edirik. Cəmiyət öz təkamül cərəyanında qəti surətdə firqə və ya firqələrə möhtac olur. Məhz vahid ciddi və yetgin firqə təkamül cərəyanında cəmiyətə rəhbərlik etməli dir. Bu başqa bir mübahisə dir. İndi bu mənim üçün bir ideal sayılır və ideal üzərində bəhs etmək istəmirəm. Cəmiyəti idarə etmək üçün firqəyə layiq və bacariqlı rəhbərlərdən əlavə məlumat, bilik, fədakarlıq nüqtəyi nəzərindən cəmiyətin sadə və adi üzvlərindən fərqlənn kadrlar da lazımdır.

Firqə təşkilatları və hovzələrin əhəmmiyyətini inkar etmirəm. Bunların da əhəmmiyyəti vardır. Bunlar Firqənin selluları, bəlkə də iskletidirlər. Təşkilat və sazman olmadığı təqdirdə firqənin həqiyqi məfhumu olmaz. Firqənin kökü cəmiyət daxilindən onun üçün gündəlik qida yetirən əsas amillər hovzədən, şöbələrdən və komitələrdən ibarətdir. Mən firqə işlərinin bu sahəsinə böyük əlaqə bəsləyirəm. Böyük Firqələrdən birinin böyük rəhbəri demişdir ki, firqə fəaliyəti və mübarizəsində firqə hovzəsi alınmaz bir qaladır. Firqə işlərində az - çox dəxalət edən hər hansı bir adam başa düşür ki, mən nə demək istəyirəm. Hələlik bu da ayrı bir bəhs dir. Ümumiyətlə demək lazımdır ki, firqənin kadrı olmadan o, cəmiyəti idarə edə bilməz. Kadr olmasa əsas etibari ilə firqə olmaz. Hovzə və təşkilat meydana gəlməz. Böyük Rusiyə inqılabının rəhbəri Lenin ilk adamdır ki, inqilabdan hələ on beş il əvvəl kadrın lazım olduğunü dərk etmişdi. Onun firqəsinin müvəffəqiyyət qazanması sirri də bundan ibarət olmuşdur. O deyırdı: Firqəni yalnız ictimai məsələlərdə bilikli, mütəxəssis və bacarıqlı olan adamlar, firqə fəaliyətindən başqa, ictimai mübarizədən başqa digər kəsb və karı olmayan ədamlar idarə etməli dirlər. O vaxtın ishtılahı ilə desək, həmin adamlar peşəçi inqilabçı olmalıdırlar. Rusiyənin ictimai inqilabının parlaq tarixi həmin nəzəriyənin düzgünlüyünü sübut etdi. Haman ictimai hərəkatın başlanğıcında Lenin Firqəsi çox da geniş yayılmamişdi. Yüz həştad milionluq bir iddəyə rəhbərlik etmək üçün iki yüz və ya üç yüz min nəfərlik cəmiyət şübhəsiz ki, əhəmmiyyətsiz və kiçik görünür. Lakin gördüyümüz kimi, həmin kiçik cəmiyət yer kürəsinin altıdan bir hisəsində yeni bir dünya yarada bildi. Bu müvəffəqiyət yalnız firqə rəhbərləri və kadrlarının fəaliyət və bacarıqlılığı nətiycəsində mümkün olmuşdur. Lenin firqəsi oktiyabr inqilabını bir iddə bacarıqlı, həbs, sürgün, mahacirət və mübarizədə bişib, bərkimiş siyasi adamların köməyi ilə etdi. Həmin kadrların köməyi sayəsində məzkur firqə igirmi neçə illik daxili döuüşlərdən sonra dünyanın ən qüdrətli ordusunu məğlüb etməyə qadır oldu. Hazırkı maharibənin gedişi cərəyanında, parlaq ulduzlar kimi qızıl ordunun başçıları daxilində nəzərə çarpan admlar, heç də iki ya üç il ərzində meydana gəlmiş şəxəslər deyillər. Onlar isə Rusiyə xalqlarının rəhbərləri tərəfindən tərbiyə olunmuş və minlərlə adi üzv daxılından seçilib həmin gün üçün hazırlanmış kadrlardan ibarətdirlər. Qoy öz ətraflarına dörd nəfər adam toplayıb, ona gurultulu firqə adi verən rəhbərlərin bizdən xoşu gəlməsin.

Biz doğru və düzgün sözləri deməliyik. Əəhrivərdən sonra göbələk kimi yerdən çıxmış firqələr, kadrları düzgün qayda ilə tərbiyət etməsələr, heç bir iş görə bilməyəcəklər. Dünyanın siyasi şəxsiyətlərindən birinin sözü ilə desək, bu iş heç də pinəçilik etmək və ya uzun qulaq sürmək deyil. Dünyada bütün işlər elm və teknik üzərində qurulduğu bir əsərdə, pinəçilik və ya uzun qulaq minməklə bir yerə çatmaq olmaz. Firqə və ya firqələrin binövrəsi və əsası məhz əməli üsul üzərində qurulmalıdır. Firqə düzəltmək, firqənin vasitəsilə cəmiyəti müəyyən məqsədə doğru sövq etmək elm və teknikdən ibarətdir. Onu həmin işləri bacaran adamların əllərinə tapışrmaq lazımdır. İctimai işlərdə, məktəb təkrar və təcrübə tələb edir. Ölkəmizdə hələlik belə məktəblər yoxdur. Diygər ölkələrdə firqəvi şəxsiyətləri, heç də məkt nimkəti arxasında oturanlar içərisindən seçmirlər. Firqə kadrları ictimai mübarizə məktəbini başa çatdırmalı, cəmiyətin imtahan mizi arxasında sınaqdan keçirilməli və həmin sınaqdan qalıb çıxmalıdırlar. Cəmiyət çox « incə» bir şey dir. Fransa tarixçilərindən biri onu oynağan ata oxşatmişdir. Oynağan və şıltaq at hər adama minik verməz. O öz adamını yaxşı tanıyar. naşı adamı, bir neçə dəfə atılıb düşməklə, yerə vurar. Lakin təcrübəli adamın altında oynaqlayar, müm kimi yumuşalar. İstənilən tərəfə sövq edilər. Belə bir suvaridən hətta atın özznün də xoşu gələr.

Nətiycədə, xülasə surətdə deməliyik ki, firqənin doğru və düzgün rəhbərlərdən əlavə, doğru və düzgün kadrları da olmalıdır. Məhz kadrlardır ki, firqəni əməldə idarə edir. Onu yaradır, genişləndirir. İctimai mübarizə də onun bacarıq və qüvvələrini işə salır. Bu bacarıq və qüvvələrin boş və hədər qalmasının qarşısını alır. Bir sözlə kadr firqənin qolları hesab olunur. Bu qolların qüdrəti nə qədər güclü olsa firqənin adi, şöhrəti və nüfuzuda bir o qədər artıb hörmət kəsb edir.

**« Ajır» qəzeti , 23 xurdad - 1 tir 1323. nümrə 156 - 160**